QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 152 (5872) **23 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanda şəhid ailələrinə diqqət və qayğı davamlıdır

*Prezident İlham Əliyev: "Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin"*



Səh 2

5

**YAP-da "Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi" adlı konfrans keçirilib**



6

**Bakıda "Şeyxülislam Allahşükür Paşazadə 70 - Mənəviyyata həsr olunmuş ömür" adlı konfrans keçirilib**



10

**Ermənistanda əsgər valideynləri müdafiə nazirliyi qarşısında etiraz aksiyası keçiriblər**



# Azərbaycanda şəhid ailələrinə diqqət və qayğı davamlıdır

## *Prezident İlham Əliyev: "Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin"*





***Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyəti, o cümlədən, müharibə əlilləri və şəhid ailələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini, məhz müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Vurğulamaq yerinə düşər ki, Ulu Öndərin təşəbbüsü ilə "Şəhid adının əbədiləşdirilməsi haqqında" qanun qəbul olunmuşdu və bu qanun, məhz Ulu Öndər Heydər Əliyevin 1993-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdi.***

Bu gün Ulu Öndərin siyasi kursunu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən bu günə kimi görülən işlər bunu sübut edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin imzaladığı ilk Fərman şəhid ailələri ilə bağlı oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə, birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrasının nəticəsi olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. Bu günə qədər birdəfəlik ödəmənin təminatı 93 faiz icra edilib.

### ŞƏHİD AİLƏLƏRİNƏ QAYĞI İLDƏN-İLƏ ARTIR

"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdü təsis olundu. Bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə, döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət və pensiya ilə yanaşı, Prezident təqaüdü verilir. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb. 28 yanvar 2019-cu il tarixli Sərəncamla şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün mənzillərin alınması məqsədilə 35 milyon manat ayrıldı. Eləcə də, 18 mart 2019-cu il tarixli Sərəncamla müharibə əlillərinin minik avtomobilləri ilə təminatı üçün 5 milyon manat ayrılması 2019-cu ildə əlavə 400-dən artıq avtomobil alınmasına, nəticədə, bu il müharibə əlillərinə nəzərdə tutulandan 3 dəfə çox, yeni 600-dək avtomobil verilməsinə imkan yaradır. Qeyd edək ki, təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər və yeni evlər verilmişdir. Cari ildə də əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcək. "Növbəti bir neçə il ərzində bütün şəhid ailələri evlərlə və mənzillərlə təmin ediləcəklər" deyən dövlət başçısı bildirib ki, bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin. Bununla yanaşı, əlillərin minik avtomobilləri ilə təminatı həyata keçirilir. Minik maşını ilə təmin olunan əlillərin də sayı ildən-ilə artır. Bu günə qədər 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilmişdir.

**"MƏN ŞƏHİD AİLƏLƏRİNƏ MƏNZİLLƏRİN, AVTOMOBİLLƏRİN AÇARLARINI ŞƏXSƏN TƏQDİM ETMİŞƏM VƏ BUNU ÖZÜM ÜÇÜN BORC BİLİRƏM"**

Şəhid ailələri ilə görüşdə şəhid ailələrinə diqqət və qayğı göstərilməsinin Onun fəaliyyətində daim prioritet təşkil etdiyini vurğulayan Prezident İlham Əliyev bundan iki gün sonra imzaladığı 30 yanvar 2019-cu il tarixli Fərmanla şəhid ailəsi üçün Prezidentin aylıq təqaüdünün 242 manatdan 300 manata, eləcə də, Əfqanıstanda şəhid olanların ailələri üçün Prezident təqaüdünün 21 fevral 2019-cu il tarixli Fərmanla 220 manatdan 300 manata çatdırılması ilə davam etdi. Bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Dövlət başçısı şəhid ailələri ilə görüşü zamanı, vurğuladığı kimi, Mən bilmirəm, hansı başqa ölkədə öz vətəndaşlarına, ağır vəziyyətdə yaşayan vətəndaşlara, yaxınlarını itirmiş vətəndaşlara bu qədər diqqət, bu qədər qayğı göstərilsin: "Mənim fəaliyyətimdə bu məsələ daim prioritet təşkil edir. Son illər ərzində, şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu, mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir".

Eyni zamanda, şəhid adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılır, onların əziz xatirəsi daim yad edilir. Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu siyasət davamlı xarakter daşıyır. Azərbaycan dövləti bu qəbildən olan insanların qayğı və ehtiyaclarını diqqətdə saxlayır və sosial problemlərinin həlli istiqamətində ardıcıl işlər görülür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Birinci xanım nümunəsi: Azərbaycan qadınının xeyirxahlığı, müasirliyi və fəallığı modeli

***Hər bir insanın öz həyat yolu vardır. Öz xalqı, dövləti üçün durmadan çalışan insanlar həmişə böyük nüfuz sahibi olublar. Onlar yalnız dünyaya gəldikləri ailə üçün deyil, bütövlükdə cəmiyyət üçün qiymətlidirlər. Mehriban xanım Əliyeva məhz bu statusda olan Azərbaycan qadını, nüfuzlu ictimai-siyasi xadimdir. Yüksək mənəvi keyfiyyətlərə malik ziyalı ailəsində dünyaya gələn Mehriban xanım Əliyeva həyat təcrübəsi ilə sübut edir ki, Azərbaycan qadını dünya əhəmiyyətli fəaliyyət göstərə, bir-birindən parlaq uğurlar qazana bilər. Sosial-mədəni həyat sferalarında çoxsaylı təşəbbüslər göstərən, səmərəli layihələr həyata keçirən Azərbaycanın birinci xanımı öz fəaliyyəti ilə bir nümunəyə çevrilib. Mehriban xanım Əliyeva Azərbaycanda birinci xanım ənənəsini yaratmaqla cəmiyyətə və dövlətçiliyə böyük töhfə verir. Bu, Mehriban xanım Əliyevaya həm bir qadın olaraq daha yüksək sosial statusda özünü təsdiq etmək, həm də, ümumiyyətlə, Azərbaycan qadını üçün bir nümunəyə çevrilmək imkanı verib. Bu müddəa kontekstində Mehriban xanım Əliyevanın geniş-miqyaslı məhsuldar fəaliyyəti üzərində geniş dayanmağa ehtiyac görürük.***



## Ailə ənənəsi: ziyalı və kreativ mühit

Çağdaş dünyamızda inkişaf etmiş və yüksək mədəniyyətə sahib cəmiyyətlər üçün qadın və gender məsələləri çox aktual hesab olunur. Hətta cəmiyyətin kimliyini bir sıra mütəxəssislər onda qadının oynadığı rolla ölçürlər. Qadın cəmiyyətdə hansı rolu oynaya bilir? Onun ailədə və geniş sosial-mədəni mühitdə, dövlətin idarə edilməsində, qanunyaratmada, icra strukturunda statusu necədir? Bu kimi sualları cavablandırmaqla konkret cəmiyyətin müasirliyi haqqında da fikir bildirmək olar.

Bunlarla yanaşı, qadının istənilən cəmiyyətdə yeri və rolu, sosial-hüquqi statusu adət-ənənə ilə sıx bağlıdır. Qadına hörmətin yüksək olduğu cəmiyyətlərdə saflıq, əxlaq, mənəviyyat və ailə tərbiyəsi də güclü olur. Heç şübhəsiz, Azərbaycan bir cəmiyyət və ölkə olaraq bu məsələdə fəxr edə bilər. Ulu öndər Heydər Əliyev qadınlarla bağlı çox dəyərli fikirlər söyləyib. Onlardan biri belədir: "Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır".

Olduqca dolğun, dərin və əhatəli fikirlərdir. Xüsusilə Azərbaycanın birinci xanımı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva haqqında düşünəndə, bu müdrik fikirlər yada düşür. Bəli, taleyin xoşbəxtliyidir ki, Azərbaycan xalqının Mehriban Əliyeva kimi övladı, Azərbaycan cəmiyyətinin şansıdır ki, Mehriban Əliyeva kimi qadın nümayəndəsi və Azərbaycan müstəqil dövlətinin uğurudur ki, Mehriban xanım Əliyeva kimi Birinci vitse-prezidenti vardır! Mehriban xanım ailə başçısı, ictimai fəal, mənəvi-əxlaqi dəyər təmsilçisi və dövlət idarəçiliyində yüksək vəzifə sahibi kimi bir nümunədir.

Vurğulanan kontekstdə Prezident İlham Əliyevin aşağıdakı fikri çox maraqlı və aktualdır. Dövlət başçısı ifadə edib: "Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər". Bu, bir həqiqətdir ki, Azərbaycan tarixinin bütün mərhələlərində, xüsusilə ən ağır dövrlərdə qadınlarımız cəmiyyətin sarsılmaz dayağı olublar. Onlar ailədə, cəmiyyətdə və döyüş meydanlarında sədaqətlə həyat yoldaşları ilə çiyin-çiyinə dayanıblar. "Ailənin və xalqın ağbirçəyi" ifadəsi təsadüfən yaranmayıb. Dövlət idarəçiliyində Tomrisi, diplomatiyada Sara Xatunu olan bir xalqın həyatının bütün səviyyələrində qadın amilinin hansı rolu oynadığına şübhə yoxdur. İndi də Prezidentin çox dəqiq ifadə etdiyi kimi, qadınlar "ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərirlər"! Mehriban xanım Əliyeva məhz bu qüdrətdə olan Azərbaycan qadını nümunəsidir!

Məsəl var: "görünən dağa bələdçi gərək deyil!". Mehriban xanım Əliyevanın həyat yolu bütün həqiqətləri aydın göstərir. Azərbaycanın birinci xanımı N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda və M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunda yüksək səviyyədə ali tibbi təhsil alıb. 1988-1992-ci illər ərzində Moskvada akademik M.Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib. 1995-ci ildən Azərbaycan Mədəniyyət Fondunun Prezidentidir. 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik edir. 2004-cü il may ayının 10-dan Heydər Əliyev Fondunun Prezidentidir. Həmin ilin avqustun 13-dən UNESCO-nun, ondan iki il sonra isə ISESCO-nun xoşməramlı səfiridir. 2005-2017-ci illər ərzində Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub. 2017-ci il fevralın 21-dən Azərbaycan Respublikasının Birinci vitse-prezidentidir. Fəaliyyəti dövründə çox sayda mükafatlar alıb, orden və medallarla təltif olunub. Məsələn, 2005-ci ildə Azərbaycanda "İlin adamı" mükafatına layiq görülüb, 2014-cü ildə "The Business Magazine" jurnalının "İlin Birinci Xanımı" mükafatını alıb, yenə həmin il "Nefertiti Media Productions" şirkətinin təsis etdiyi "Ən nüfuzlu qadın" mükafatına layiq görülüb.

Razılaşaq ki, bu cür nailiyyətləri əldə etmək üçün insan çox qabiliyyətli, Vətənini və işini sevən, ictimai həyatda çox fəal olmalıdır. Mehriban xanım Əliyevanın özü həyat fəlsəfəsinin əsas məqamını ifadə edən fikirlər söyləyib. Azərbaycanın birinci xanımı müsahibələrinin birində ifadə edib: "Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim... Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idi. O illər müstəqil Azərbaycanın təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər təlatümlü həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və köklərə qayıdılırdı".

Burada onu vurğulayaq ki, Mehriban xanım Əliyevanın həyat yolunu seçməsində ailəsi mühüm rol oynayıb. Onun valideynləri yüksək səviyyəli ziyalı alimlər, vətənpərvər insanlar və ictimai səviyyədə olduqca fəal intellekt sahibləri idilər. 1983-cü ildə Azərbaycanın indiki Prezidenti İlham Əliyevlə ailə həyatı qurub. İlham Əliyev həmin dövrü belə xatırlayır: "...Əlbəttə, zahiri görünüş böyük rol oynayır. Amma onun (Mehriban xanım Əliyeva nəzərdə tutulur - red.) daxili aləmindən gələn və indi də gəlməkdə olan mehribanlıq, yəqin ki, zahiri görkəmi ilə yanaşı daha çox cəlb edirdi". Bu bağlılıqda Mehriban xanım Əliyevanın ailə haqqında fikirləri çox maraqlıdır. Azərbaycanın birinci xanımı deyir: "Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma, yəqin ki, başlıcası bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir. Bir-birinə son dərəcə diqqətli münasibət çox vacibdir. Əgər ailədə hər bir kəs özünün vacibliyini və əvəzedilməzliyini duyursa, özünün müdafiə olunduğunu və sevildiyini hiss edirsə - bu, yalnız gələcək ailə səadətinin əsası deyil, həm də hər bir məqsədə çatmaq üçün möhkəm bir stimuldur". Həyat göstərdi ki, Mehriban xanım, doğrudan da, həm daxili keyfiyyətlərinə, həm intellektual səviyyəsinə, həm də işgüzarlığına görə bütün cəmiyyət üçün nümunə olmaq iqtidarındadır.

Həmin aspektdə bir məqamı da mütləq vurğulamaq gərəkdir. Mehriban xanım Əliyeva təbiətən kreativ insandır. Azərbaycanın birinci xanımı cəmiyyətdə pozitiv yeniliklər etməyi bacarır. Məhz bu məqamı nəzərdə tutaraq ekspertlər vurğulayırlar ki, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq Mehriban xanım Əliyeva birinci xanım statusunu formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirib. Dünya təcrübəsi göstərir ki, birinci xanım ilk növbədə elmə, mədəniyyətə, təhsilə və səhiyyəyə daha çox diqqət yetirir. Mehriban xanım isə həmin sahələrlə yanaşı, müxtəlif humanitar təşəbbüslərin reallaşmasına bilik və bacarığını sərf edir, dövlət başçısı ilə ictimaiyyət arasında güclü əlaqələndirici rolunu oynayır. Birinci xanımın irəli sürdüyü təşəbbüslər dövlətlə vətəndaşın birliyinin təmin edilməsində vacib rol oynayır.

## Məsuliyyət və etimad: fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilməyin məntiqi

Mehriban xanım Əliyevanın Azərbaycanın birinci xanımı kimi yüksək səviyyədə uğurlu fəaliyyətinin, əlbəttə, öz səbəbləri vardır. Bu barədə birinci xanımın özü çox dolğun və maraqlı fikir ifadə edib. Müsahibələrinin birində Mehriban xanım Əliyeva vurğulayıb: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli işdir... Fikrimcə, vəziyyətindən və statusundan asılı olmayaraq bu və ya digər rolu oynamalı deyilsən və kimliyini saxlamağı bacarmalısan. Mən birinci xanım olmağımı, ilk növbədə, insanların bu və ya digər probleminin həlli üçün obyektiv fürsət kimi dəyərləndirirəm".

Ardı Səh. 4

# Birinci xanım nümunəsi: Azərbaycan qadınının xeyirxahlığı, müasirliyi və fəallığı modeli

Əvvəli səh. 3

Bizcə, bu fikirlərdə Azərbaycanda birinci xanım ənənəsinin mahiyyəti və fəlsəfəsi yığcam ifadə olunub. Mehriban xanım bu statusda bir nümunə, fəaliyyət modelidir. Konkret desək, birinci xanım statusu Mehriban xanım üçün hər şeydən öncə öz xalqı, milləti və dövləti üçün çalışmaq fürsətidir. Eyni zamanda, bütün bəşəriyyət miqyasında humanitar sahədə geniş fəaliyyət göstərmək imkanıdır. Çünki məlumdur ki, müasir dünyada əhalinin müxtəlif təbəqələrinin sosial-iqtisadi, maliyyə, mədəni və s. problemləri çoxdur. Mehriban xanım Əliyeva Azərbaycanın birinci xanımı və Birinci vitse-prezident kimi milli səviyyədəki işləri ilə dünya miqyasındakı işlərini uyğunlaşdırır və bu əsasda bütün dünyada böyük nüfuz qazanıb. Azərbaycanlı qadının bu uğuru, əlbəttə, həm nümunədir, həm də qürur hissi doğurur.

Bu kontekstdə Azərbaycanın birinci xanımının "dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm" fikri olduqca nümunəvidir. Bu fikirlərdə Mehriban xanımın təkcə daxili zənginliyi və təvazökarlığı deyil, həm də Azərbaycan qadınlarını cəmiyyətdə fəal olmağa bir çağırış öz ifadəsini tapıb. Mehriban xanım Əliyeva humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi




barədə stereotipləri uğurla təkzib edir"! Bəli, Mehriban xanım Əliyeva öz xarakteri, kimliyi və konkret fəaliyyəti ilə bütün dünyaya sübut edir ki, Azərbaycan qadını müasir cəmiyyətlərdə fəallığı ilə bir nümunə ola bilər, çünki bu xalqın özünün güclü demokratiklik və tolerantlıq ənənələri var.

Əlbəttə, bu fikirlər Mehriban xanımın mədəniyyətlərin, dinlərin və sivilizasiyaların dialoqu, əməkdaşlığı, irqindən asılı olmayaraq hər bir xalqın övladlarının rifah içində yaşamaq hüququnun olduğu istiqamətlərdə fədakarlıqla çalışmasını göz önünə gətirir. Kökləri Azərbaycan mədəniyyətinin məzmununa, dövlətçilik tarixinə və qadınların cəmiyyətdəki statusuna gedən həmin fədakarlığın müasir tarixi mərhələdə çox uğurlu model formasını alması, təbii ki, Mehriban xanım Əliyevanın birbaşa xidmətləri ilə bağlıdır. Bu aspektdə Mehriban xanımın aşağıdakı fikirləri reallığı tam əks etdirir: "Əsas budur ki, rəhbər vəzifədə - Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyev ilk növbədə, ölkənin və Azərbaycan xalqının maraqlarına istinad edir. Düşünürəm ki, bu qərarı da o, bu prinsiplərə istinad edərək qəbul etmişdir. Buna görə də əlbəttə, üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam".





keyfiyyətlərdən irəli gələn əzmkar və çoxşaxəli qadın fəaliyyətini təşviq edir. Müasir dövlətçilikdə və sosial-mədəni inkişafda həmin faktorun rolu danılmazdır. İndi qadınların fəallığı dünyanın ən inkişaf etmiş cəmiyyətləri üçün demokratiyanın təmini baxımından çox prinsipial amil hesab olunur.

Bütün bunlara görə, heç də təsadüfi deyil ki, bir çox xarici ölkələrin tanınmış siyasi liderləri və ictimai xadimləri vurğulayırlar: "Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir". Bu qiymətləndirmə çox maraqlıdır və istənilən cəmiyyətdə qadınların sosial statusunun məzmununda vacib məqamı önə çəkir. Çünki, əslində, bu mövqedə Azərbaycan cəmiyyətinin demokratik ənənəsinin güclü olması etiraf edilir. Məlumdur ki, məhz Azərbaycanda müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika qurulub və onun ilk qərarlarından biri qadınların seçki hüququnun tanınmasından ibarət olub. Ümumiyyətlə, Azərbaycan ziyalı elitası XIX əsrin sonu - XX əsrin əvvəllərində "qadın bir şəxsiyyət kimi azad olmayınca, xalqın problemləri həllolunmaz qalacaq!" tezisini irəli sürüb. Bu barədə Həsən bəy Zərdabi, Əhməd bəy Ağayev, Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Mirzə Ələkbər Sabir, Firidun bəy Köçərli, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Məhəmməd Əmin Rəsulzadə və başqaları yazıblar.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində isə cinsindən asılı olmayaraq hər bir vətəndaşın seçib-seçilmək hüququnun olduğu öz qanuni təsdiqini tapdı. Həmin dövrdə Mirzə Bala Məhəmmədzadə yazırdı: "Qadınlar sair vətəndaşlarla bərabər vətəni və siyasi hüquq kəsb edirdilər ki, bu hal bütün Şərqdə deyil, Avropada belə tamamilə tətbiq edilmiş deyildi. Azərbaycan milli xartiyası bu qərar ilə nə qədər ülvi, bəşəri və mədəni qayələrlə doymuş olduğunu isbat etməkdədir".

Bu hadisədən 100 il sonra özünün demokratik ənənəsi və imkanları ilə fəxr edən Qərbin siyasi liderləri etiraf etdilər ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva "siyasətin yalnız kişilərin işi olması



Göründüyü kimi, Mehriban xanım Əliyeva həm qadın, həm ana, həm də yeni tipli siyasi təfəkkür daşıyıcısı olan dövlət xadimi kimi Azərbaycan üçün nümunədir, qadınların ictimai fəallığını əks etdirən yeni modelin müəllifidir. Bu statusda Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı müasir dünyada nümunəvi fəal qadın və siyasi xadim kimi də qəbul edilir. Əlbəttə, bu, bütün Azərbaycan xalqını sevindirir, cəmiyyət layiqli dövlət adamı ilə qürur duyur.

Şübhə yoxdur ki, Mehriban xanım Əliyeva bundan sonra da xalqı, dövləti və milləti üçün səylərini əsirgəməyəcək, Azərbaycanın müstəqil dövlətçiliyinin inkişafına öz qiymətli töhfələrini verəcəkdir. Azərbaycanın birinci xanımı Azərbaycan cəmiyyətində mənəvi keyfiyyətlərlə siyasi fəaliyyəti optimal şəkildə uyğunlaşdıran insan kimi də yüksək nüfuza malikdir.

**Newtimes.az**

# YAP-da “Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi” adlı konfrans keçirilib

***Dünən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə “Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi” mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, konfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov hazırda ölkəmizin möhtəşəm inkişaf dövrünü yaşadığını bildirib. Azərbaycanın dünyanın ən uğurlu gənc dövlətlərindən biri olduğunu deyən Əli Əhmədov qeyd edib ki, ölkəmiz heç vaxt indiki kimi güclü, qüdrətli, sabit, əminaman olmayıb. Onun sözlərinə görə, hazırda Azərbaycan beynəlxalq müstəvidə böyük nüfuza malik olan ölkədir və dünyada baş verən proseslərdə fəal iştirak edir, mövqeyini ortaya qoyur.***

Baş nazirin müavini həmçinin deyib ki, Azərbaycan mədəniyyətlərarası dialoqa böyük töhfələr verən ölkədir. O söyləyib ki, Azərbaycanda mültikulturalizm dövlət siyasətinin tərkib hissəsidir. İndiki halda, dünyada sivilizasiyalar arasında toqquşmaların baş verdiyi zamanda mədəniyyətlərarası dialoqa töhfələr verilməsi, multikulturalizm ideyasının təbliğ edilməsi xüsusi önəm daşıyır. Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, dünya birliyi, beynəlxalq təşkilatlar da Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfələri birmənalı şəkildə etiraf edirlər. Bunun aydın ifadələrindən biri də mütəmadi olaraq bu mövzuda nüfuzlu beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsindən ibarətdir.



YAP Sədrinin müavini vurğulayıb ki, Azərbaycan dövlətinin bu sahədəki fəaliyyətinə Heydər Əliyev Fondu çox ciddi dəstək verir. Onun sözlərinə görə, Fond yarandığı vaxtdan bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir və bu sahədə ilk təşəbbüslərin və addımların atılmasında mühüm rol oynayıb.

Konfransın çox əlamətdar gün ərəfəsinə təsadüf etdiyini deyən Əli Əhmədov qeyd edib ki, avqustun 26-da Azərbaycan Respublikasının Birinci-vitse prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin müavini, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın doğum günüdür. Baş nazirin müavini bildirib ki, sivilizasiyalararası dialoqun təbliğ olunmasında Mehriban xanım Əliyevanın böyük xidmətləri var.






Əli Əhmədov Mehriban xanım Əliyevanı öz adından və YAP-ın çoxsaylı üzvləri adından təbrik edərək deyib ki, Azərbaycanın ictimai-siyasi həyatında Mehriban xanımın rolu və xidmətləri böyükdür. YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycanın uğurlar qazanmasında Mehriban xanım Əliyevanın özünəməxsus rolu və əməyi var: “O, Azərbaycanda birinci xanım obrazının yaranmasında və bu missiyasının uğurla həyata keçirilməsində müstəsna xidmətlər göstərib. Eyn zamanda, Mehriban xanım Birinci vitse-prezident kimi yüksək səviyyədə fəaliyyət göstərir və dövlət siyasətinin həyata keçirilməsində Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır. Bununla yanaşı, müasir Azərbaycanın siyasi proseslərində iştirak edən qadın obrazı da Mehriban xanımın timsalında və fəaliyyətində özünü aydın şəkildə ifadə edir. Məmnunluqla demək istəyirəm ki, YAP-ın nailiyyətlərində də Mehriban xanım Əliyevanın fəaliyyəti əhəmiyyətli rol oynayır. O həmçinin Azərbaycanı dünyada layiqincə təmsil edir, həqiqətlərimizi təbliğ edir, bir sıra beynəlxalq təşkilatların elçisidir. Hesab edirəm ki, bundan sonra da Mehriban xanım Əliyeva Azərbaycanın inkişafına böyük töhfələr verəcək”.











Tədbirdə daha sonra mədəniyyət nazirinin birinci müavini, YAP İdarə Heyətinin üzvü Vaqif Əliyev, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbəri Rəvan Həsənov və Azərbaycanın Xalq artisti, professor Mənsum İbrahimov çıxış edərək Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən danışıb, onun ictimai fəaliyyəti, sivilizasiyalararası dialoqa, eləcə də, milli mənəvi dəyərlərimizin qorunmasında və dünyada təbliğ olunmasında verdiyi töhfələr xüsusi vurğulayıblar. Sonda Yeni Azərbaycan Partisının təbrik videoçarxı təqdim olunub.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
23 avqust 2019-cu il

# Bakıda "Şeyxülislam Allahşükür Paşazadə 70 - Mənəviyyata həsr olunmuş ömür" adlı konfrans keçirilib

***Avqustun 22-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi münasibətilə "Şeyxülislam Allahşükür Paşazadə 70 - Mənəviyyata həsr olunmuş ömür" adlı konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən Komitənin sədri Mübariz Qurbanlı Şeyxülislam Allahşükür Paşazadənin həyat və fəaliyyətindən danışıb. Sonra "REAL" televiziyasının hazırladığı sənədli film nümayiş olunub.***



Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Allahşükür Paşazadəni nüfuzlu ictimai xadim kimi səciyyələndirib. Əli Həsənov deyib ki, A.Paşazadə Azərbaycanın mənəvi həyatında özünəməxsus nümunələr yaradıb. Azərbaycan müstəqillik əldə etməzdən əvvəl şeyxülislamlıq müəyyən çərçivəyə alınmışdı. Dövlət müstəqilliyinin bərpasından sonra isə şeyxülislamlıq tamamilə yeni müstəviyə qədəm qoydu. Bu, ilk növbədə, Allahşükür Paşazadənin adı ilə bağlıdır. Azərbaycan müstəqilliyinin ilk illərindən böyük dövlətlərin marağında idi. A.Paşazadə həmin illərdə məsuliyyəti öz üzərinə götürdü və mənəvi birliyin möhkəmləndirilməsində əhəmiyyətli rol oynadı. O, Azərbaycanda milli-mənəvi birlik modelini yaradıb. Onun bu istiqamətdəki xidmətləri ulu öndərimiz Heydər Əliyev tərəfindən xüsusi qiymətləndirilib.





QMİ sədrinin ölkəmizdəki dini konfessiyalar arasında münasibətlərin yüksək səviyyədə qorunub saxlanılmasında da birbaşa rol oynadığını bildirən Prezidentin köməkçisi qeyd edib ki, sadə insanlar bu nümunəni görüb digər dinlərin nümayəndələrinə hörmət və ehtiramla yanaşırlar. İslam dini müdrik dindir. Onu xurafatdan uzaqlaşdırıb düzgün təqdim edilməsi də Şeyxülislam Allahşükür Paşazadənin xidmətidir. O, çətin zamanda xalqın qarşısına çıxaraq prinsipial mövqe ortaya qoyub. Bu gün bütün dünyada böyük hörmətə malik olan A.Paşazadə Azərbaycandakı tolerant mühiti beynəlxalq aləmdə tanıdır. Şeyxülislam, eyni zamanda, sülh missiyası həyata keçirən diplomatdır və İslam dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində də böyük rol oynayıb, müsəlman ölkələrinə təcavüzlərə qarşı daim etirazını bildirib. A.Paşazadə Şeyxülislam olaraq öz missiyasını layiqincə yerinə yetirib və yetirir. 1993-cü ildə o, bütün insanları Ulu Öndərin ətrafında birləşməyə çağırdı. Bu da onun vətəndaşlıq mövqeyinin göstəricisidir. Azərbaycan dövləti onun fəaliyyətini layiqincə qiymətləndirib. Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev çıxışlarında A.Paşazadənin xidmətlərini dəfələrlə qeyd ediblər.



Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov bugünkü tədbirin çox əlamətdar olduğunu bildirərək qeyd edib ki, Allahşükür Paşazadənin 40 illik şeyxülislamlıq fəaliyyəti dövründə xalqımız, dövlətimiz qarşısında böyük xidmətləri var. O, əsl ağsaqqaldır. A.Paşazadə sübut edib ki, ağsaqqallıq yaşla bağlı deyil, o, hələ 30 yaşında olarkən Şeyx seçilmişdi. Həmin vaxt Naxçıvanda məscidlər tikildi. O, hər zaman Ulu Öndərin yanında idi. Ulu Öndərimizin müstəqil Azərbaycana rəhbərliyə başlamasından sonra ölkəmizdə hər sahədə tərəqqi başladı. Şeyxülislam A.Paşazadə bu işə daim öz dəstəyini göstərib.

Azərbaycan Yazıçılar Birliyinin sədri (AYB), Xalq yazıçısı Anar A.Paşazadənin Azərbaycan tarixində ən gənc Şeyxülislam olduğunu vurğulayıb. Qeyd edib ki, o, hələ gənc yaşlarında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına töhfələr verib. Bu gün isə Azərbaycanın tolerantlıq modelinin dünyaya tanıdılmasında əvəzsiz rol oynayır.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov A.Paşazadənin təkcə ictimai xadim deyil, eyni zamanda, siyasi xadim və diplomat olduğunu bildirərək deyib: "Xalqımızın çətin günlərində Azərbaycanda iki nəfər xalqın qarşısına çıxdı, Qorbaçovu ittiham etdi - ulu öndər Heydər Əliyev və Şeyxülislam Allahşükür Paşazadə. Ölkəmizdə dini münasibətləri çox düzgün tənzimləyən Şeyxülislam A.Paşazadə dünyada böyük hörmətə malikdir. Bütün cərəyanların nümayəndələri Vəhdət namazlarında iştirak edirlər. Bu isə ölkəmizdəki müxtəlif dini cərəyanlara mənsub insanların vahid mərkəzdə birləşdiyini göstərir. Bu gün Azərbaycan beynəlxalq dini tədbirlərin keçirildiyi mərkəzə çevrilib".

***Ardı Səh. 7***

# Bakıda “Şeyxülislam Allahşükür Paşazadə 70 - Mənəviyyata həsr olunmuş ömür” adlı konfrans keçirilib










Əvvəli Səh. 6

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxışında bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi multikulturalizm siyasətinin əsasını dinlərarası münasibətlərin qarşılıqlı hörmət əsasında qurulması təşkil edir. Bu siyasətin reallaşmasına QMİ sədri də öz töhfəsini verir. A.Paşazadənin həyat və fəaliyyətindən söhbət açan E.Nəcəfov qeyd edib ki, o, nəinki Azərbaycanda və Qafqazda, eyni zamanda, bütün dünyada böyük nüfuz sahibidir. Ulu Öndər onun xidmətlərindən danışarkən demişdi: Əgər Allahşükür Paşazadə bütün Qafqazın Şeyxidirsə, biz bununla fəxr etməliyik.




Milli Məclis sədrinin birinci müavini, parlamentin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, Azərbaycanda vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində Allahşükür Paşazadənin şəxsiyyəti çox böyük rol oynayıb. O, bütün dinlərə mənsub insanlara eyni məhəbbətlə yanaşır. Bu səmimiyyəti onu bütün dünyada sevdirir. “Bu gün Azərbaycan böyük dini tədbirlərə ev sahibliyi edir. Bunu qısqananlar da var. Lakin bu, bizim həyat tərzimizdir”, - deyə Z.Əsgərov vurğulayıb.







İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Useymin Şeyxülislam Allahşükür Paşazadəni təkcə Azərbaycan üçün deyil, bütün İslam dünyası üçün əvəzolunmaz, dahi şəxsiyyət kimi dəyərləndirib. Qeyd edib ki, A.Paşazadə dahiliyin səsidir, İslam dünyasının ona böyük ehtiyacı var.

Şeyxülislam Allahşükür Paşazadənin xalqımızın etibarını, inamını qazanmış dini lider olduğunu deyən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova vurğulayıb ki, o, bütün Qafqazda dini həmrəyliyin bərqərar olunmasında əvəzsiz rola malikdir. Hər il keçirilən İftar mərasimlərində bütün dinlərə mənsub insanların birgə iştirakı ölkəmizdəki tolerant mühitdən xəbər verir. Ölkəmizdə sülhün, əmin-amanlığın qorunub saxlanılmasında QMİ sədrinin böyük xidmətləri var.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyev Şeyxülislam Allahşükür Paşazadə ilə bağlı xatirələrini bölüşüb. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev və Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev çıxışlarında ölkəmizdə dinə münasibətdən, multikultural və tolerant mühitdən məmnunluqlarını ifadə ediblər.

Bildirilib ki, dini tolerantlığın qorunub saxlanılması daim dövlətin diqqət mərkəzindədir və tolerantlıq Azərbaycan xalqının həyat tərzidir. Bütün dinlərə mənsub insanlar bu ölkədə rahat, sərbəst şəkildə yaşayırlar. Ulu öndər Heydər Əliyev deyirdi ki, tolerantlıq xalqın yüksək mədəniyyətinin təzahürüdür. Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasət hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir və zənginləşdirilir. Buna görə də Azərbaycandakı bütün xalqlar özlərini sərbəst, rahat hiss edir, dini inanclarına görə mənfi münasibətlərə məruz qalmırlar.

Sonra Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bütün xoş sözlərə görə təşəkkürünü bildirib. O, Azərbaycanda İslam dininin sovet dövründəki çətin vəziyyətindən danışaraq bildirib ki, xalqımız gizli də olsa, öz imanını yaşadıb. Ulu öndər Heydər Əliyev hələ o dövrdə İslamın inkişafı üçün işlər görür, bu sahədə mütəxəssislərin yetişdirilməsi istiqamətində fəaliyyət göstərirdi. “Ulu Öndər çox imanlı şəxsiyyət idi. Bu gün Azərbaycanın tolerant ölkə kimi tanınmasının əsasını Ümummilli Lider qoyub. Hazırda isə bu işi Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün İslamın təbliği və tanıdılması üçün hər cür şərait var. Dövlətimiz bu işə xüsusi dəstək göstərir”, - deyə Allahşükür Paşazadə qeyd edib. Tədbir ziyafətlə davam edib.

# Azərbaycan dövlətçiliyinin mühafizəsi müqəddəs vəzifədir

*23 avqust Azərbaycanda Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının peşə bayramı günüdür*

***Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının peşə bayramı günü Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il 21 avqust tarixli Sərəncamı ilə təsis edilmişdir. Azərbaycan Prezidentinin, digər dövlət mühafizəsi obyektlərinin, həmçinin, respublikamızda səfərdə olan xarici ölkələrin dövlət və hökumət başçılarının təhlükəsizliyinin təmin edilməsi olan Xüsusi Dövlət Mühafizə Xidməti ötən dövrdə şərəfli yol keçmişdir.***

Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə 1993-cü il avqustun 23-də yaradılan Ali Dövlət, Hakimiyyət və İdarəetmə Orqanları Baş Mühafizə İdarəsi Ulu Öndərin 2002-ci il 6 may tarixli Sərəncamı ilə Xüsusi Dövlət Mühafizə Xidməti adlanmışdır. Xidmətin 1990-cı illərin əvvəllərində ölkəmizdə mövcud olan mürəkkəb ictimai-siyasi şəraitdə mühafizə işinin yüksək peşəkarlıqla təşkil edilməsində mühüm xidmətləri olmuşdur. Ölkəmizin müstəqilliyinin çətin sınaqlar qarşısında qaldığı bir vaxtda xidmətin şəxsi heyəti Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi işlərdə yüksək sadiqlik nümayiş etdirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində belə deyirdi: "1990-cı illərin ortalarında Milli Qvardiya və Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları Ulu Öndəri qorudular. Beləliklə, Azərbaycanda sabitliyi, dövlətçiliyin əsaslarını, müstəqilliyimizi qorudular. Azərbaycanın uğurlu inkişafını təmin etdilər".

Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibindəki İxrac Neft və Qaz Boru Kəmərlərinin








Təhlükəsizliyi İdarəsi Bakı-Tbilisi-Ceyhan neft, Cənubi Qafqaz ixrac qaz boru kəmərlərinin Azərbaycandan keçən 443 kilometrlik hissəsinin, Bakı-Supsa, Bakı-Novorossiysk neft kəmərlərinin ölkəmizdən keçən hissələrinin mühafizəsini uğurla təşkil edir.

## XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİ KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏYƏ YÜKSƏLİR

Xidmətin fəaliyyətinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirən Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu ilin martında qurumun Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Departamentinin İdarəetmə Mərkəzinin açılışında iştirakı onun işinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə səbəb olmuşdur. Dövlət orqanları üçün operativlik və təhlükəsizlik tələblərinə cavab verən TETRA rabitə sistemi ixrac neft və qaz boru kəmərləri boyunca genişləndirilmişdir. Hazırda bir çox dövlət orqanlarının operativ radiorabitə əlaqəsi bu sistem üzərində qurulmuşdur. Mərkəzdə dövlət orqanlarının internet, informasiya resurslarının operativlik və təhlükəsizlik tələblərinə cavab verən TETRA radiorabitə sisteminin, AZSTATENET şəbəkəsinin və mərkəzləşdirilmiş informasiya təminatı sisteminin avadanlığı yerləşdirilmişdir.

Xüsusi Dövlət Mühafizə Xidmətinin həyatında daha bir əlamətdar hadisə 2011-ci il



iyulun 4-də qurumun Müalicə-Diaqnostika Mərkəzinin istifadəyə verilməsi olmuşdur. Ən müasir tibbi avadanlığın quraşdırıldığı mərkəzin istifadəyə verilməsi həm xidmətin, həm də Milli Qvardiyanın əməkdaşlarının sağlamlığının qorunması istiqamətində atılan mühüm addım olmuşdur.

Dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilən Xüsusi Dövlət Mühafizə Xidmətinin Təlim-Tədris Mərkəzi dünya standartlarına uyğun və müasir hərbi kompleks olmaqla, öz xüsusiyyətləri ilə regionda seçilir. Burada regionda, ilk dəfə olaraq, interaktiv atıcılıq tiri yaradılmışdır. Bu infrastruktur şəxsi heyətin hərbi tapşırıqları ən yüksək səviyyədə icra etmək vərdişlərinə yiyələnməyə kömək edir. Bu, həm də Azərbaycanın hərbi qüdrətinin bariz göstəricisidir.

## MÜHAFİZƏNİN İŞİ DAHA da TƏKMİLLƏŞDİRİLİR

Şanlı döyüş yolu da keçən Xüsusi Dövlət Mühafizə Xidməti ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlər vermişdir. Bu barədə dövlətimizin başçısı demişdir: "Milli Qvardiyanın Azərbaycan xalqı qarşısında çox böyük xidmətləri olmuşdur. Qvardiya yaradılan günlərdən Azərbaycana təcavüz edən erməni qəsbkarlarına qarşı döyüşlərə başlamışdır. Çox böyük cəsarətlə, şücaətlə vuruşmuşdur, şəhidlər vermişdir və Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini qorumuşdur".

Beynəlxalq terrorizmin geniş vüsət aldığı bir vaxtda mühafizə işinin təkmilləşdirilməsinə, müasir tələblərə cavab verən təlimlərin keçirilməsinə, yüksək peşəkar kadrların hazırlanmasına xüsusi diqqət yetirməklə ölkəmizin ordu quruculuğuna töhfə verən Xüsusi Dövlət Mühafizə Xidmətinin yüksək döyüş qabiliyyətinə malik şəxsi heyəti öz fəallığı ilə seçilir.

Bu gün peşə bayramlarını qeyd edən Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları bayram sevincini ikiqat yaşayırlar. Belə ki, dövlət başçısının sərəncamları xidməti vəzifələrini yerinə yetirərkən, fərqləndiklərinə görə, Xüsusi Dövlət Mühafizə Xidmətinin bir neçə hərbi qulluqçuları və mülki işçiləri 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı, "Tərəqqi" medalı və s. ilə təltif ediliblər. Bu, onların əməyinə verilən dövlət qiymətidir. Dövlətimizin başçısının tapşırıqlarını hər an yerinə yetirməyə qadir olan xidmətin şəxsi heyəti müstəqilliyi uca tutaraq, Azərbaycan dövlətçiliyinin və dövlətimizin başçısının etibarlı mühafizəsini özünün müqəddəs vəzifəsi hesab edir.

***Zümrüd BAYRAMOVA***

# Əli Əhmədov: Hökumət süni qiymət artımına yol verilməməsi üçün lazımi tədbirlər görür




***"Azərbaycan hökuməti süni qiymət artımına yol verilməməsini daim diqqət mərkəzində saxlayır, bu məqsədlə lazımı tədbirlər görülür." AZƏRTAC xəbər verir ki, bu fikirləri avqustun 22-də Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov mətbuat nümayəndələrinin iştirakı ilə ərzaq məhsullarının satışı ilə məşğul olan bir neçə ticarət mərkəzində aparılan reyd zamanı deyib.***

Kənd təsərrüfatı məhsullarının keyfiyyəti, qiyməti və əhaliyə göstərilən xidmətin səviyyəsi ilə maraqlanan Əli Əhmədov bildirib ki, Azərbaycan Prezidentinin və hökumətinin apardığı siyasətin əsas məqsədi ölkədə daxili istehsalın inkişaf etdirilməsi, xüsusilə kənd təsərrüfatı məhsullarının istehsalının artmasıdır.

Baş nazirin müavini qeyd edib ki, son illər Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi əhəmiyyətli dərəcədə artıb. Beləliklə də əhalinin ərzaq təhlükəsizliyi problemi demək olar ki, həllini tapıb. Hazırda ölkə vətəndaşlarının əzaq və qidaya olan tələbatının əksər hissəsi yerli istehsal hesabına ödənilir.

Aqrar sektorda böyük irəliləyiş olduğunu vurğulayan Əli Əhmədov ölkədə məhsul bolluğunun təmin edildiyini, eyni zamanda, istehsal edilən məhsulların bir hissəsinin xaricə ixrac olunduğunu söyləyib. Diqqətə çatdırıb ki, Azərbaycanın ixrac potensialının formalaşmasında və inkişaf etdirilməsində çox böyük rol oynayan sahələrdən biri də kənd təsərrüfatıdır. Bu sahənin inkişafı fermerlərin məşğullunun artırılması ilə ilə yanaşı, ölkənin ərzağa olan ehtiyacını daha dolğun ödəməyə imkan yaradacaq. Digər məqsəd isə Azərbaycan vətəndaşının ərzaq qıtlığından əziyyət çəkməməsidir.

Vurğulanıb ki, Azərbaycan hökuməti dövlətimizin başçısı İlham Əliyevin tapşırığı ilə bu istiqamətdə lazım olan bütün zəruri tədbirləri görür. Belə ki, müəyyən yerlərdə satış yerləri, logistik mərkəzlər və ticarət mərkəzləri yaradılıb. "Burada xidmətlərin səviyyəsi və keyfiyyəti bir-birindən fərqlənir. Bütün bunların hamısı müsbət haldır. Eyni zamanda, bizi maraqlandıran əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda məhsul bolluğu əsasında məhsulun qiymətinin mümkün qədər aşağı salınması təmin edilsin. Biz istəyirik ki, "tarladan-süfrəyə" zəncirində iştirak edən hər iki tərəf - fermer də, istehlakçı da məmnun qalsın. Fermerlər istehsal etdikləri məhsulları müvafiq bir qiymətə sata bilsinlər ki, ailə büdcələrini formalaşdırsınlar, digər tərəfdən isə istehlakçı üçün də məhsulun qiyməti əlverişl olmalıdır", - deyə Baş nazirin müavini qeyd edib.

Reyd zamanı üç müxtəlif ticarət mərkəzində olduqlarını, məhsulların qiymətlərinin və xidmətlərin bir-birindən fəqrləndiyini bildirən Əli Əhmədov əhalinin müxtəlif təbəqələrinin ehtiyaclarının ödənilməsi üçün müxtəlif səviyyəli xidmətlərin və məhsulların təklif edildiyini, eləcə də yüksək qiyməti olan məhsullara rast gəlindiyini deyib: "Biz məhsulların qiymətində müşahidə etdiyimiz fərq barədə də düşünməliyik. Xüsusilə bazardakı məhsullarla yarmarkadakı məhsulların qiyməti arasında çox böyük fərq nəzərə çarpır. Hökumət bunun üzərində ciddi şəkildə düşünməlidir. Biz qiymət artımının qarşısını bolluq yaratmaq yolu ilə almalıyıq. Kimsə qiyməti süni şəkildə artırmağa çalışarsa, Hökumət iqtisadi tədbirlər görməlidir. Ən təsirli tədbirlərdən biri o ola bilər ki, satış mərkəzlərinin və vasitəçi mərkəzlərin sayı artırılsın. İnsanlara xidmət göstərən satış mərkəzləri, habelə fermerdən məhsulu alıb bu mərkəzlərə çatdıran vasitəçilərin sayı nə qədər çox olarsa, qiymət də lazımınca tənzimlənər".

Əli Əhmədov diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti süni qiymət artımına yol verilməməsinə çox ciddi nəzarət edir. Hökumət də bu məsələni daim diqqət mərkəzində saxlayır. Çalışmalıyıq ki, vətəndaş məhsulun keyfiyyətindən, xidmətdən və qiymətindən məmnun qalsın. Əsas məsələlərdən birinin də ictimai nəzarətin təmin edilməsi olduğunu deyən Baş nazirin müavini bunun ən etibarlı vasitələrindən birinin də mətbuat olduğunu vurğulayıb. KİV-in bu işdə fəal olmasını və Hökumətə dəstək göstərməsini tövsiyə edib.









# "Bu gün dövlətin və xalqın əleyhinə "virtual terrorçular" fəaliyyət göstərir"



***"Bu gün radikal müxalifət partiyalarının üzvləri asan qazanc əldə etmək üçün dövlətimizin və xalqımızın milli maraqlarını satmağı özlərinin həyat amalına çevirməkdədirlər. Beş-on min dollara saxta sənədlər düzəldən, 3000 dollara AXCP-nin vəsiqəsini alan və 500 dollara da Əli Kərimli ilə şəkil çəkdirib başqa ölkələrdən sığınacaq dilənən satqınlar anti-Azərbaycan dairələrin əlində təzyiq alətinə çevriliblər". Bunu YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında deyib.***

Vüqar Rəhimzadə bildirib ki, kütləvi kommunikasiya vasitələri ilə ölkələrin daxili işlərinə qarışmaq texnologiyası gündəmə gəlməmişdən öncə radikal müxalifətin müxtəlif ölkələrin səfirlikləri vasitəsilə maliyyələşdirilməsi və yönləndirilməsi adi siyasi mexanizmə çevrilmişdi: "2003-cü ildə Azərbaycanda radikal müxalifətin nümayəndələrinin bəlli səfirliklər vasitəsilə ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərməsi hər kəsin yaddaşındadır. Eyni zamanda, 2003-cü ildə Gürcüstanda "qızılgül", 2004-cü ildə Ukraynada "narıncı", 2005-ci ildə Qırğızıstanda "zanbaq" inqilabları məhz haqqında danışılan sistem üzrə baş vermişdi. Lakin bu "inqilabların" faydası oldumu? Bu gün həmin ölkələrdə vəd olunan demokratiya varmı? Qırğızıstanda bu gün də ictimai-siyasi sabitliyi bərqərar etmək mümkün olmur, Ukrayna və Gürcüstan ərazilərinin bir hissəsini defakto itiriblər. Müxtəlif siyasi qrupların məqsədləri naminə ayrı-ayrı ölkələrdə törədilən qarışıqlıqların həmin xalqlara hansı perspektivsizliklər vəd etdiyinin, bu gün şahidi oluruq. 2011-ci ildən etibarən isə sosial şəbəkələr və sosial media üzərindən ölkələrin daxili işlərinə qarışmaq, xüsusilə də seçkilərə təsir etmək, kütlə psixologiyası ilə oynamaq təcrübəsi formalaşdı. Misirdə, Tunisdə, Yəməndə, Liviyada, Suriyada bu cür müdaxilələrin baş verməsinin hazırda hansı nəticələrə gətirib çıxardığını da görürük. Vətəndaş müharibəsi, kütləvi qırğınlar, şəhərlərin, qəsəbələrin, kəndlərin dağıdılması, humanitar böhran, qaçqın axını və s. sosial şəbəkələr vasitəsilə insanların şüurunu yuyub demokratiya adı altında törədilən qlobal cinayətlərin "bəhrələridir".

YAP Siyasi Şurasının üzvü V.Rəhimzadə vurğulayıb ki, Yaxın Şərqdə və Şimali Afrikada bu ssenariləri reallaşdıran imperialist qüvvələr Azərbaycan kimi müstəqil siyasət yürüdən ölkələrdə də qarışıqlıq yaratmaq, ictimai-siyasi sabitliyi pozmağa bəzən cəhd edirlər: "Sadəcə olaraq Azərbaycan xalqı müdrik olduğundan, son 26 il ərzində ölkəmizin keçdiyi inkişaf yolunu, əldə olunan nailiyyətləri yüksək qiymətləndirdiyindən antiazərbaycan qüvvələrin dağıdıcılıq planları baş tutmur. Ona görə də Azərbaycanda inqilab ssenarilərini işə salmaq üçün "sapı özümüzdən olan baltalar"dan istifadə edirlər. Bu işdə isə müxtəlif fırıldaqlarla, ayrı-ayrı siyasi partiyaların vəsiqələri və arayışları ilə xarici ölkələrdə sığınacaq tapan satqınlardan yararlanırlar. Anti-Azərbaycan dairələr onlara sosial şəbəkələrdə Azərbaycan hakimiyyətinə, dövlətinə və xalqına qarşı qarayaxma kampaniyası aparmaq üçün maliyyə dəstəyi verirlər. Bu gün ən geniş yayılmış forma olan sosial şəbəkə seqmentləri üzərindən hesablar və onlayn kanallar açmaqla dövlət və xalq əleyhinə işləyirlər. Fransada Qənimət Zahid və Məhəmməd Mirzəli, ABŞ-da Sevinc Osmanqızı, Almaniyada Tural Sadıqlı kimilər anti-Azərbaycan dairələrindən külli miqdarda vəsait alır və bu çirkli pullar müqabilində, Azərbaycan əleyhinə çirkin təbliğat aparırlar. Onlar hər bir cəmiyyətdə olduğu kimi, Azərbaycanda da baş verən adi hadisələri şişirtməklə, siyasiləşdirməklə ictimai rəyi hakimiyyət əleyhinə çevirməyə çalışırlar. Hətta Vidadi İsgəndərli, Qabil Məmmədov, İnqilab Kərimov kimi tərbiyədən, əxlaqdan uzaq gədələr dilə gətirilməsi mümkün olmayan təhqir və söyüşlərlə hakimiyyət nümayəndələrini gözdən salmağa cəhd edirlər. Bütün bunların müqabilində isə onlar üçün Qərb ölkələrində xüsusi yaşam şəraiti yaradıblar. Məsələn, Sevinc Osmanqızına "xidmətlərinə" görə 262 min dollarlıq "doğum günü hədiyyəsi" ediblər. Qənimət Zahidə və Tural Sadıqlıya ofis bağışlayıblar".

"Göründüyü kimi, bu gün Azərbaycan dövləti və xalqı əleyhinə satqınlardan ibarət "virtual terrorçular" fəaliyyət göstərir" deyən Vüqar Rəhimzadə əlavə edib ki, bu gün Vətənini sevən, xalqının firavan həyatını və övladlarının gələcəyini qorumaq istəyən hər bir kəs bu satqınlara qarşı birləşməli, antimilli qüvvələrlə bağlı qəti mövqeyini ortaya qoymalı və onların antihumanist və antibəşəri çağırışlarını qətiyyətlə rədd etməlidirlər.

# "Belə hadisələrin siyasi mübarizə predmetinə çevrilməsinə imkan verməməliyik"



"Bu günlərdə qəzaya uğrayan MİQ-29 döyüş təyyarəsi ilə bağlı sosial şəbəkələrdə müxtəlif çaşdırıcı fikirlərin müzakirəsini məqsədəuyğun hesab etmirəm". Bunu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. Ekspert bildirib ki, ilk növbədə, heç kim hadisədən, təbii fəlakətdən sığortalanmayıb: "İkincisi isə bu hadisənin təfərrüatı barədə Müdafiə Nazirliyinin rəsmi açıqlaması var və bu, hər kəsi qane etməlidir. Çünki bəzi qruplar ictimai fikri çaşdırmaq üçün dövriyyəyə müxtəlif fikirlər ataraq müzakirələr açırlar. Bu isə kimlərinsə maraqlarına xidmət edir və ordumuz, dövlətimiz haqqında mənfi fikir yaratmaq məqsədi daşıyır. Xüsusilə, bu mövzunun müzakirəsi anti-Azərbaycan qüvvələrin, ölkəmizə qarşı kampaniya aparan qrupların marağındadır. Lakin yaddan çıxarmaq lazım deyil ki, torpaqlarımız işğal altındadır və döyüş vəziyyətində olan bir ölkənin vətəndaşları hərbi məlumatların müzakirəsində ehtiyatla davranmalıdır. Belə hadisələrin kimlərsə tərəfindən siyasi mübarizə predmetinə çevrilməsinə imkan verməməliyik".

# Ermənistanda əsgər valideynləri müdafiə nazirliyi qarşısında etiraz aksiyası keçiriblər



Ermənistanda etirazlar səngimir. Bu dəfə əsgər valideynləri müdafiə nazirliyi qarşısında etiraz aksiyası keçiriblər. Onlar hərbi hissələrdə komandirlərin övladlarına etdikləri təzyiq və işgəncələrə son qoymalarını tələb ediblər.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, etirazçılar Ermənistan ordusunda özbaşınalıq və xaosun tüğyan etdiyini bildiriblər. Son altı ayın statistikasına görə, orduda qeyri-döyüş şəraitində ölən əsgərlərin sayı 33-ə çatıb. Onlardan 14-ü hərbi hissələrdəki özbaşınalığa dözə bilməyərək intihar edib. Narazı əsgər valideynləri qeyd ediblər ki, qeyri-döyüş şəraitində itkilərin artması hərbi hissələrdəki xaosdan xəbər verir. Bunun nəticəsində əsgəri xidmətdən yayınma halları artıb. Cəmiyyətin orduya inamı yoxdur. Çünki xidmət keçənlərin əksəriyyəti evlərinə, ən yaxşı halda, əlil olaraq qayıdır. Hökuməti isə onların sonrakı taleyi maraqlandırmır. Valideyn Ağban Vardanyan bildirib ki, övladı bir il əvvəl məcburi olaraq Dağlıq Qarabağa hərbi xidmətə göndərilib. Valideynin sözlərinə görə, oğlu bu yaxınlarda hərbi hospitala yerləşdirilib. Övladının hərbi hissənin komandir müavini tərəfindən döyüldüyünü deyən narazı valideyn vurğulayıb ki, həmin şəxs oğluna işgəncə verdikdən sonra onu boğaraq öldürmək istəyib. Etirazçılar bildiriblər ki, müdafiə naziri onları qəbul etməsə aksiyanı dayandırmayacaqlar. Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisindən bildirilir ki, orduda baş verən problemlərin kökündə rüşvət və korrupsiya dayanır. Ermənistan təhlükəsizlik xidmətinin keçirdiyi istintaq nəticəsində müdafiə nazirliyinin ehtiyacları üçün xərclənməli olan pulların mənimsənilməsi üzə çıxıb. İstintaq məlumatına görə, müdafiə nazirliyinin yüksəkrütbəli şəxsləri təchizatçı şirkətlə cinayət əlaqəsinə girərək dəyəri aşağı olan malları bağladıqları müqavilədə yüksək qiymətə göstərirlər. Məlumatda bildirilib ki, faktlar bağlı cinayət işi də açılıb, istintaq gedir.

# Çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsinə dair Fərmanın icrası davam etdirilir



Azərbaycan Respublikası Prezidentinin növbəti humanist addımı olaraq imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli Fərmanının icrası ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) və digər aidiyyəti dövlət qurumları tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, görülmüş tədbirlər nəticəsində ötən altı ay ərzində ümumi sahəsi 2 milyon 190 min 82 kvadratmetr olan 21 min 911 mənzilli, ümumilikdə 359 girişli 133 binaya (kompleksə) dair müsbət rəy verilib. 129-u Bakıda, 3-ü Abşeron rayonunda, 1-i isə Gəncədə yerləşən bu binalara dair sənədlər komplektləşdirilib və istismara hazır olması barədə tərtib edilmiş rəy aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Abşeron Rayon və Gəncə Şəhər İcra hakimiyyətlərinə təqdim olunub.

Aparılmış müayinələr nəticəsində aşkarlanan çatışmazlıqların aradan qaldırılması üzrə işlərin Fərmanla müəyyən olunmuş vaxtda başa çatdırılması, bu istiqamətdə qarşıya çıxan məsələlərin operativ həlli üçün birgə fikir mübadiləsinin aparılması məqsədilə iyulun 30-da Abşeron Rayon İcra Hakimiyyətinin inzibati binasında müvafiq qurumların nümayəndələrinin iştirakı ilə Abşeron rayonu ərazisində inşa edilmiş və nöqsanlar aradan qaldırılmadığından Fövqəladə Hallar Nazirliyinin müvafiq rəyinin verilməsi mümkün olmamış 23 çoxmənzilli yaşayış binasının nümayəndələri ilə görüş keçirilib. Tədbirdə hər bir bina üzrə mövcud vəziyyət təhlil edilib, nöqsanların aradan qaldırılması məqsədilə görüləcək işlər və bu istiqamətdə aidiyyəti dövlət qurumları tərəfindən kömək göstərilməsi imkanları müzakirə olunub. Fərmandan irəli gələn məsələlərin icrası davam etdirilir və görülən işlər dövlətimizin başçısının nəzarətindədir.

# Məcburi köçkün məktəbləri üzrə şagirdlərin elektron yerdəyişməsinə avqustun 26-dan başlanılacaq



Elektron xidmətin yaradılmasında məqsəd ümumtəhsil müəssisələrində şagird kontingentinin sabit saxlanılmasına, şagirdlər haqqında statistik hesabatların dəqiq və optimal göstəricilər əsasında formalaşdırılmasına nail olmaq, icbari təhsilin yerinə yetirilməsinə rəhbərlik və nəzarəti gücləndirmək, həmçinin vətəndaş məmnuniyyətini təmin etməkdir.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müvafiq sorğu və bildiriş göndərildikdən sonra 5 iş günündən gec olmayaraq valideyn (digər qanuni nümayəndə) şagirdin əvvəl oxuduğu məktəbdən şəxsi işini götürərək dəyişmək istədiyi məktəbə təqdim edir. Yerdəyişmə dərs ilinin hər hansı yarımili ərzində baş verərsə, valideynə şagirdin fənlər üzrə summativ qiymətləndirmə nəticələrinin əks olunduğu arayış da təqdim edilir. Müəyyən edilmiş müddət keçdiyi halda müraciət ləğv olunur və bu barədə valideynin (digər qanuni nümayəndənin) şəxsi kabinetinə məlumat göndərilir. Xarici ölkəyə gedən şagirdin şəxsi işi valideynin (digər qanuni nümayəndənin) sistemdən çap olunmuş ərizəsi əsasında verilir. Məcburi köçkün məktəblərinə yerdəyişmə avqustun 26-dan etibarən mümkün olacaq.

# "Vikipediya"da Naxçıvanla bağlı silsilə məqalələr yaradılır

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) "Vikipediya" Metodik Mərkəzinin könüllüləri tərəfindən Naxçıvanın tarixi, coğrafiyası, arxeologiyası, mədəniyyəti, memarlığı, qədim sənətkarlığı, milli adət-ənənələri, musiqi alətləri, tarixi abidələri, görkəmli elm, mədəniyyət, ictimai-siyasi xadimləri haqqında sistemli şəkildə onlarla məqalələr yaradılıb və əsaslı şəkildə redakte edilib.

MEK-dən AZƏRTAC-a bildirilib ki, məqalələrdə bu qədim diyarın tarixi, milli adət-ənənələri, mətbəxi, sənətkarlıq nümunələri, görkəmli şəxsiyyətləri haqqında məlumat verilib. "Vikipediya"da Azərbaycan dilində yerləşdirilən məqalələrdə, həmçinin Naxçıvanla bağlı maraqlı faktlar əksini tapıb. Bu istiqamətdə "Vikipediya"da ardıcıl olaraq məqalə yaradılması prosesi davam etdirilir.

# "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası üçün müasir xidmət şəraiti yaradılıb

***Azərbaycan Respublikası Sərhəd Qoşunlarının formalaşmasında ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda ilk milli sərhəd qurumları yaradılıb.***



Ümummilli Liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən cəmi dörd gün sonra, 1991-ci ilin sentyabr ayının 7-də Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul edib. Bununla da, Azərbaycanda vahid komandanlığa tabe olan ilk milli ordunun əsası qoyulub. Həmin vaxt Naxçıvandakı sərhəd dəstəsinin əmlakının, silah və sursatının tamamilə Azərbaycan sərhədçilərinə təhvil verilməsi işi də ölkəmizin milli maraqlarına uyğun şəkildə həll olunub. 1992-ci il avqustun 22-də Naxçıvandakı 41-ci sərhəd dəstəsi Azərbaycanın tabeliyinə keçmiş və sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdı. Rusiya Sərhəd Qoşunları Baş Komandanlığı və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin rəhbərliyi ilə aparılan danışıqların nəticəsi olaraq, 1992-ci il sentyabrın 29-da isə 41-ci Sərhəd Dəstəsi ləğv olunub, onun bütün hərbi və təsərrüfat əmlakı Naxçıvanda yeni yaradılmış birinci Sərhəd Dəstəsinin sərəncamına verilib, 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli Sərhəd Qoşunları tərəfindən mühafizəyə qəbul edilib. Ümummilli lider Heydər Əliyev bu barədə deyib: "Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illər boyu rus qoşunları tərəfindən qorunmuşdur. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının birinci dəstəsi yaradıldı... Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir".







Ölkəmizdə Sərhəd Qoşunlarının yaradılması ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə ikinci qayıdışından sonra da dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu nümayiş etdirib. Ümummilli Liderimizin yolunu uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğı nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir. "Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir. Müstəqillik sərhədsiz mümkün deyil", - deyən dövlət başçısı Dövlət Sərhəd Xidməti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayıb, normativ-hüquqi baza təkmilləşdirilib, maddi-texniki təminat və döyüş hazırlığı artırılıb. Ali Baş Komandan İlham Əliyevin 2004-cü il 14 yanvar tarixli Fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında Sərhəd Diviziyası, 2015-ci il 17 avqust tarixli Fərmanı ilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası yaradılıb, Naxçıvanda sərhədlərimizin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər yeni mərhələyə qədəm qoyub.

Sərhəd Qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bu gün də muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçilər qarşısında mühüm vəzifələr qoyaraq deyib: "Müasir Azərbaycan sərhədçisi universal funksiyaların icraçısıdır. O, sərhədlərin mühafizəsi ilə yanaşı, beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı da mübarizə aparmalı, fədakarlıq göstərməlidir".

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi qulluqçulara yüksək dövlət qayğısı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoyub. Sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilib, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb. Göstərilən diqqət və qayğı nəticəsində qərargah binası, xəstəxana, müasir tələblərə cavab verən uşaq bağçası tikilib, mərkəzləşmiş istilik sistemi yaradılıb. Həmçinin sərhədçi ailələri üçün istirahət parkı salınıb, hamam-camaşırxana kompleksi yenidən qurulub, çörək sexi istifadəyə verilib. Bundan başqa, Şərur və Culfa sərhəd komendantlıqları, müasir tələblərə uyğun 10 sərhəd zastavası, zabit-gizir ailələri üçün yaşayış binaları, Qaraçuq sərhəd dəstəsi tikilib. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının ərazisində abadlıq işləri də görülüb, avtomobil parkında təmir emalatxanaları, bütün anbarlar, avtomobillərin saxlanılması üçün yeni saxlanclar, qarovul və qazanxana binaları inşa edilib. Bununla yanaşı, şəxsi heyətin təminat və təchizatının yaxşılaşdırılması, sərhəd zastavalarının müasir texnika və avadanlıqlarla təmin edilməsi də daim diqqət mərkəzində saxlanılır.

***AZƏRTAC-ın Naxçıvan bürosu***

## İctimai qaydanın qorunması həm də vətəndaşdan asılıdırsa... nə etməli?



Valideyni tərəfindən azyaşlının ayağından zəncirlənməsi barədə fakt ictimailəşməmişdən bir gün əvvəl Bakı Şəhər Baş Polis İdarəsinə daxil olub. Sosial şəbəkə vasitəsilə faktı ötürən şəxs anonimliyini xahiş edərək rastlaşdığı hüquqazidd əməl barədə polisi məlumatlandırmaqla vətəndaşlıq mövqeyi nümayiş etdirib.

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a bildirib ki, faktın təsdiqini tapması, kütləvi informasiya vasitələrinin məsələyə həssas münasibəti ətrafımızda rastlaşdığımız hüquqazidd əməllər barədə polisin məlumatlandırılmasının cəmiyyətimizdə sosial-neqativ hallara qarşı mübarizənin yaxşılaşmasına xidmət etdiyini göstərir.

Sosial şəbəkələrdə və digər ictimai yerlərdə "Polis bilir", "Polis məlumatlıdır", "Polisin işidir, mənə nə...?", "Polis görmür?", - deyə səsləndirilən fikirlərlə müzakirə olunan hüquqazidd əməllər əhəmiyyətinə və mənəvi yükünə görə ictimai məsuliyyətsizlikdir, yaxud səhlənkarlıqdır. Paytaxtımızda ictimai qaydanın və ictimai təhlükəsizliyin etibarlı qorunması və təminatı hər birimizin üzərinə düşür.

## Baş Prokurorluqda Tofiq Yaqubluya xəbərdarlıq edilib



Baş Prokurorluqda aparılmış araşdırmalarla Bakı şəhər sakini Tofiq Yaqubلunun "Facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə qəsdən və qərəzli şəkildə reallığa uyğun olmayan, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmağa xidmət etməklə insanların hakimiyyət əleyhinə qanunsuz hərəkətlərə sövq edilməsinə, onların qanunsuz etiraz aksiyaları keçirməyə təhrik olunmasına, habelə ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin pozulmasına yönələn təxribat xarakterli cəhdlər etməsi müəyyənləşdirilib.

Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, bununla əlaqədar T.Yaqublu Baş Prokurorluğa dəvət edilib. Ona "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönələn, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi məqsədyönlü tədbirlərin üzərinə kölgə salmağa xidmət edən həmin məlumatların yayılmasını gələcəkdə davam etdirəcəyi təqdirdə barəsində cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq edilib.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edərək nəzərə çatdırır ki, ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin pozulmasına, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq, insanları qanunsuz etiraz aksiyaları keçirməyə təhrik etməklə hakimiyyətin zorla ələ keçirilməsinə və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar və digər qanunazidd hərəkətlərin qarşısı qətiyyətlə alınacaqdır.

## Dövlət Sərhəd Xidmətinin 100 illiyinə həsr olunan markalar dövriyyəyə buraxılıb

"Azərmarka" MMC Dövlət Sərhəd Xidmətinin (DSX) 100 illiyinə həsr olunan poçt blokunu dövriyyəyə buraxıb. AZƏRTAC "Azərpoçt" MMC-yə istinadla xəbər verir ki, poçt bloku 115x135 millimetr ölçülərində hazırlanıb və 3 markadan ibarətdir. Markaların ölçüləri isə 56x34 millimetrdir.

Dövriyyədə olan poçt blokunun tiraji 10 min nüsxə, hər bir markanın nominal dəyəri isə 3 AZN təşkil edir. Buraxılışa əlavə olaraq "Birinci gün" zərfləri 750 ədədlə tədavülə buraxılıb. Bu orijinal poçt markalı blok "Azərmarka"nın baş rəssamı Vüqar Əyyubov tərəfindən hazırlanıb. Layihə Fransanın "Cartor Security Printing" çap evində işıq üzü görüb.

Qeyd edək ki, birinci markada DSX-nın 100 illiyi münasibətilə buraxılmış xatirə medalı əks olunub, ikinci markanın üzərində qrafik şəkildə çiyinində tüfəng, gözlərinə durbin tutmuş Azərbaycan sərhədçisi, üçüncü markada isə DSX akademiyasının və DSX xüsusi məktəbinin döş nişanları öz əksini tapıb.

# Füzuli və Cəbrayılın işğalından 26 il ötür

***1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarını işğal ediblər. Hər iki rayonun işğalı Azərbaycan iqtisadiyyatına 9 milyard dollara yaxın ziyan vurub. Füzulinin 51 kəndi və rayon mərkəzi ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın sakin doğma torpaqlarını tərk edib. Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayınadək sahəni əhatə edir, Cəbrayıl, Xocavənd, Ağcabədi və Beyləqan rayonları Araz çayı boyunca İranla həmsərhəddir.***





İşğal nəticəsində, öz ata-baba yurdlarından didərgin düşən insanların şəxsi mülkləri talan olunub, Azərbaycanın tarixi memarlıq abidələri məhv edilib. Füzuli rayonu ərazisində yerləşən, qədim dövrün mədəni abidələri kimi, UNESCO-nun dünya irsi siyahısına düşən Azıx və Tağlar mağaraları ermənilər tərəfindən dağıdılıb. Azıxda aşkar olunan maddi-mədəniyyət nümunələri 1981-ci ildə Parisin İnsan Muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilib.

Yağı düşmən tərəfindən Füzuli rayonundakı uzunömürlü təbiət abidələri - Şərq çinarları da tamamilə məhv edilib, Ərgünəş meşəsində 500 hektar ərazi yandırılıb. Füzuli aqrar rayonu olduğundan, işğal nəticəsində dəyən ziyan milyardlarla manat ölçülür. Rayonun ərazisi 1386 kv.km, əhalisi təxminən 105 min nəfərdir. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd var. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınıb və məcburi köçkün ailələri, müvəqqəti olaraq, burada yerləşdirilib. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşıb. Füzuli rayonu 1988-ci ildən başlayaraq, mütəmadi olaraq, ermənilərin hücumuna məruz qalıb. İşğal nəticəsində, 1100-dən çox Füzuli sakini şəhid olub, 113 nəfər girov götürülüb, 1450 nəfər müxtəlif dərəcəli əlil olub. Geniş meşə massivləri ilə örtülü olan Dövlətyarlı kəndində ağaclar, bütünlüklə, qırılıb, Qoçəhmədli kənd yolu boyunca ağaclar kütləvi surətdə məhv edilib, Yağlıvənd kəndində kəndarası yolun sağ və sol tərəfindəki böyük yaşıllıqlar tamamilə qırılıb, 2006-2009-cu illər ərzində, rayonun 35000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılıb.

Cəbrayılda da üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq inkişaf etmiş sahələr olduğuna görə, dəyən ziyanın həcmi böyükdür. Bu rayonda 14 mindən çox daşınmaz əmlak, 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə və 149 mədəniyyət ocağı işğal altındadır.

Ermənilər Cəbrayıl rayonunun da mühüm əhəmiyyətə malik tarixi memarlıq abidələrini, yeraltı sərvətlərini, zəngin su mənbələrini dağıdaraq məhv edib, meşələri yandırıb, bu yurdun rəmzinə çevrilən Xan çinarları kəsiblər. Hər iki rayon ağır döyüşlərdə minlərlə şəhid verib. Füzuli rayonundan 8, Cəbrayıl rayonundan isə 6 nəfər erməni işğalçılarına qarşı döyüşlərdə göstərdikləri igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

BMT Təhlükəsizlik Şurası işğal edilən Füzuli, Cəbrayıl, Qubadlı və digər rayonlardan erməni silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən 874 saylı qətnamə qəbul etsə də, bu qətnamə də digərləri kimi icra edilməyib və kağız üzərində qalıb.

2016-cı ilin aprel döyüşlərində ordumuz düşmən qüvvələri Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyindən və ətraf ərazilərdən geri çəkilməyə məcbur etdilər. Nəticədə, dinc əhalinin Cocuq Mərcanlı kəndinə qayıdıb öz yurd yerlərində yaşamalarına şərait yaranıb və çox qısa bir vaxtda həmin kənd bərpa edilib və müxtəlif bölgələrdə məcburi köçkün kimi müvəqqəti məskunlaşmış sakinlərin buraya köçürülməsinə başlanılıb. Bu gün Lələ təpənin ələ keçirilməsi ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində tam təhlükəsiz həyat şəraiti təmin edilib. Cocuq Mərcanlıda geniş tikinti-quruculuq işləri davam edir. Birinci mərhələdə yaşayış məntəqəsində 50 fərdi ev, məktəb binası və müvafiq infrastrukturun tikintisindən sonra ikinci mərhələdə 100 fərdi yaşayış evinin, 50 yerlik uşaq bağçasının, tibb məntəqəsi və klubicma mərkəzi üçün binaların, poçt binasının və digər zəruri infrastruktur obyektlərinin inşası aparılır. Qeyd edək ki, bu gün də bu işlər davam etdirilməkdədir. Bu gün bütün ölkə ictimaiyyəti, qaçqın və məcburi köçkünlər, hesab edirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən atılan qətiyyətli addımlar növbəti uğurlarımızın və doğma ellərə "Böyük Qayıdış"ın başlanğıcıdır.

Hazırda Füzuli və Cəbrayıldan olan məcburi köçkün soydaşlarımız Azərbaycanın 50-dən çox şəhər və rayonunda məskunlaşıblar. Onlar dövlətin tam qayğısı ilə əhatə olunublar.

***Zümrüd BAYRAMOVA***

## Qırğızıstanın sabiq baş prokuroru ev dustağı edilib



Qırğızıstanın sabiq baş prokuroru İndira Coldubayeva məhkəmənin qərarı ilə ev dustaqlığına yerləşdirilib. Qırğızıstan Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatında deyilir ki, Coldubayeva "korrupsiya" maddəsi üzrə cinayətdə iştirakda şübhəli bilinir. O, əsasən 2013-cü ildə kriminal avtoritet Əziz Batukayevi qanunsuz olaraq həbsdən azad etməkdə təqsirləndirilir.

Qeyd edək ki, İndira Coldubayeva 2011-2015-ci illərdə Qırğızıstan prezidenti aparatında məhkəmə islahatı şöbəsinə rəhbərlik edib, 2015-2018-ci illərdə isə ölkənin baş prokuroru vəzifəsində çalışıb.

## Azərbaycan XİN separatçı rejimin hesabatının BMT-də yayılmasına münasibət bildirib



Xarici İşlər Nazirliyi Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin hesabatının BMT-də yayılması ilə bağlı KİV-lərdə dərc olunan məlumata münasibət bildiri

Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisindən bildirilir ki, orduda baş verən problemlərin kökündə rüşvət və korrupsiya dayanır. Ermənistan təhlükəsizlik xidmətinin keçirdiyi istintaq nəticəsində müdafiə nazirliyinin ehtiyacları üçün xərclənməli olan pulların mənimsənilməsi üzə çıxıb. İstintaq məlumatına görə, müdafiə nazirliyinin yüksəkrütbəli şəxsləri təchizatçı şirkətlə cinayət əlaqəsinə girərək dəyəri aşağı olan malları bağladıqları müqavilədə yüksək qiymətə göstəriblər. Məlumatda bildirilib ki, faktlar bağlı cinayət işi də açılıb, istintaq gedir.

## "Koroğlu" operası nümayiş olunacaq

Sentyabrın 19-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin "Koroğlu" üçpərdəli operası nümayiş olunacaq. AZƏRTAC xəbər verir ki, Ü. Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində təqdim olunacaq səhnə əsərində Koroğlu obrazını Əməkdar artist Ramil Qasımov canlandıracaq. Qeyd edək ki, builki festival çərçivəsində 40-dək tədbirin təşkili nəzərdə tutulur. Festivalda ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna və Gürcüstandan tanınmış musiqi kollektivləri iştirak edəcək.



## Gömrük nəzarətindən gizlədilən siqaretlər aşkarlanıb

Gömrük nəzarətindən gizlədilən siqaretlər aşkarlanıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında Astara gömrük postunun yük-idxal xəttində İranın "Mekanizasion Keshavarzi Shali Kasht" şirkətindən ölkəmizə kafel gətirən, Azərbaycan vətəndaşının idarə etdiyi "Maz" markalı yük avtomobili saxlanılıb. Həmin nəqliyyat vasitəsinə "Tobi" ləqəbli kinoloji xidmət itinin tətbiqi ilə gömrük baxışı keçirilib. Baxış zamanı xidməti it nəqliyyat vasitəsinin kabinəsinə reaksiya verib. Kabinədə aparılan yoxlama nəticəsində hər iki qapının üzlüyündə, arxa yataq hissəsinin divarında və sağ oturacağın altındakı boşluqda gömrük nəzarətindən gizlədilən 16 min 200 ədəd "Senator", 7000 ədəd "Milano" və 2000 ədəd "Kent" markalı siqaretlər aşkarlanıb. Daha sonra stasionar rentgen qurğusundan keçirilən yük nəqliyyat vasitəsinin qoşqusundakı 3 yeşiyin hər birinin alt hissəsində, xüsusi düzəldilən saxlanc yerlərində gömrük nəzarətindən gizlədilən 7600 ədəd "Senator" və 13 min 800 ədəd "Milano" markalı siqaretlər tapılıb. Faktla bağlı araşdırma aparılır.

## 10-a yaxın avtomobildən oğurluq edən şəxs yaxalanıb



Paytaxtda 10-a yaxın avtomobildən oğurluq edən şəxs yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 19-da Xətai rayonu ərazisində iki avtomobildən 2800 manat pul, iki mobil telefon və sənəd oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Cəlilov Xətai Rayon Polis İdarəsinin 34-cü, 35-ci və 36-cı polis bölmələri əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb. Aparılmış əməliyyat tədbirləri ilə onun rayon ərazisində daha 6 avtomobildən pul, sənəd, videoqeydiyyat qurğusu, akkumulyator və kosmetik əşyalar oğurlaması da müəyyən edilib. Yasamal Rayon Polis İdarəsinin 26-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində isə rayon ərazisində bir avtomobildən iki mobil telefon və tütün məmulatı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş F.Ağayev yaxalanıb. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

## Binəqədidə soyğunçuluq edən şəxs saxlanılıb



Avqustun 20-də Binəqədi rayonunun Hökməli qəsəbəsi ərazisində naməlum şəxs qəsəbə sakini R.Əhmədovun 70 manat pulunu soyğunçuluq yolu ilə alıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Şıxəliyev Binəqədi Rayon Polis İdarəsinin 40-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## İran yeni raketini sınaqdan keçirib



Avqustun 22-də İran yeni "Bavar-373" tipli zenit raket kompleksini sınaqdan keçirib. AZƏRTAC xəbər verir ki, Rusiyanın S-400 sistemlərinə yaxın olan "Bavar-373" sınaqdan uğurla keçib. Sınaq atışında iştirak edən İranın Müdafiə naziri Əmir Xatəmi kompleksin Hava Hücumundan Müdafiə Qüvvələrinin sərəncamına verildiyini bildirib.

# DOST mərkəzləri müasir Azərbaycanın siması kimi

***Azərbaycan, sözün əsl mənasında, əsl yenilik, islahatlar və dəyişikliklər ölkəsi kimi dünya mediyasının da, beynəlxalq düşüncə mərkəzlərinin də diqqət mərkəzindədir. Artıq bu dəfə təkcə neft və qazımızdan gələn gəlir və ya bu nemətlərimizin yaratdığı iqtisadi möcüzələrlə gündəmdə deyilik. Adımız adət etdiyimiz və uğur olaraq bizim üçün artıq adiləşən yeni iqtisadi nailiyyətlərə görə çəkilmir. Artıq Azərbaycan, neft və qaz sektorunda olduğu kimi, yeni vətəndaş cəmiyyətinin və intellektual idarətmə yeniliklərinə görə də qlobal mərkəzlərin dəyərli brend göstəricisinə çevrilib. İndi əksər inkişaf etməkdə olan Avropa ölkələri də Azərbaycanın müəllifi olduğu yeni ictimai islahat proqramlarını təcrübə olaraq öyrənməyə üstünlük verirlər. Onlar Orta Asiya və ya hansısa inkişaf etməmiş ölkələr qrupuna aid deyillər. İnkişaf etməkdə olan ölkələrdir!***




## "ASAN xidmət"dən başlanan yenilik!

Azərbaycanda cəmiyyətin yenilənməsi, xüsusi ilə vətəndaşla dövlət qurumları arasında yeni vasitə sektorunun işə düşməsi, cəmiyyət üçün əsl inqilabi ictimai yenilik idi. On illərdir ki, cəmiyyətin qabırğasına gənə kimi dürtülən, mənəvi və sosial faktor olaraq onun "qanını içən" süründürməçilik, laqeydlik və rüşvət predmetləri üçün "qəbirqazan" funksiyasını ilk dəfə "ASAN xidmət" reallaşdırdı. Yaradılanda bu sistemin nələri dəyişəcəyini kimə desəydin, sənə ən yaxşı halda xəyalpərəst deyərdi. Amma ölkə rəhbərliyinin strateji planı nəticəsində nə baş verdi?

Birincisi, ən azından ölkə əhalisi illərləaylarla bir-iki sənəd almaq üçün idarə qapılarında ömür çürütmək kimi işgəncədən canını qurtardı. Elə buna görə yüz minlərlə insanın hər gün bu işi təşkil edənlər üçün Allaha dua etmələri hər şeyi açıqca ortaya qoyur. Təsəvvür edin ki, təzə tikilmiş evinin sənədləşdirilməsi üçün sovet dövründən üzübəri illərlə bürokratlaşmış idarədən sənəd almaq üçün bütün gününü qapılarda keçirən vətəndaşlar, indi bu işi cəmi bir saata həll edə bilirsə, əllərini yuxarı qaldırıb şükür etməkdən başqa nə etməlidir ki?

Rayonda alqı-satqı sənədi üçün 150 manat pul rüşvət verən bir vətəndaş, "ASAN xidmət"ə gəlib bunun üçün, sadəcə 14 manat ödəməli olduğunu və cəmi 1 saat ərzində işini həll edə biləcəyini öyrənəndən sonra, "başına-gözünə vurursa", "ASAN xidmət" barədə əlavə bir sözə ehtiyac qalırmı?

İkincisi və ən əsası, "ASAN xidmət" sisteminin bu sahədə illərlə kök salmış bürokrat aparata və rüşvət "sisteminə" ölümcül zərbə vurması idi. Artıq insanlar, sözün əsl mənasında, qarşılarında açılan mənzərədən heyrətə gəldilər. Bu yeni sistem, sovet dövrünün acı bürokratiyasına və rüşvət "xidmətinə" öyrəşmiş milyonlarla insan üçün, sözün əsl mənasında, möhtəşəm yenilikdir. Təsəvvür edin ki, daha bu insanlar ən ucqar rayonlarda, sovet dövründən qalmış və "kif basmış" "kupça idarələrində", arxiv şöbələrində rüşvət verib saatlarla ayaq üstə qalmayacaqlar. Bunun əvəzində, müasir dizaynda tikilmiş gözəl binalarda güləruz, nizam-intizamlı heyət cəmi 1 saata onların problemlərini həll edəcək və əvvəlki vaxtlarda olduğu kimi, daha onlar balalarının "boğazından kəsib" rüşvət ödəməyəcəklər.

Üçüncüsü, daha bu binalarda "Həsənağaların qohumları" bir daha ön plana çıxmayacaqlar. Belə olan halda, "ASAN xidmət", rüşvət və bürokratiya ənənələrinə hüquqi və idari zərbə endirməklə yanaşı, eyni zamanda insanların psixologiyasında da tam fərqli düşüncəyə yol açmış oldu.

Daha insanlar işlərini ötüşdürmək üçün kiminsə cibini "ziyarət etmək" kimi acınacaqlı hala üz tutmurlar. İşlərini qanunla həll etməyi üstün tuturlar.

Məncə, elə bu sonuncu faktın özü "ASAN xidmət"in ən böyük qələbəsidir. İnsan beynini, düşüncəsini dəyişdirmək, tarixdə ən böyük qələbə sayılır. İnanmaq istəyirəm ki, artıq insanlarımız adi sənəd almaq üçün, öz növbəsini, gözləməyə və rüşvət verməmək üçün qanunlarla iş görməyə üstünlük verəcəklər.

## Yeni ideya, yeni uğur: DOST Mərkəzləri!

Adından da göründüyü kimi, yeni yaradılan DOST (Dayanıqlı və Operativ Sosial Təminat) layihəsi, hər şeydən əvvəl, ilk növbədə, cəmiyyətdəki aztəminatlı insanlara, əhalinin sosial firavanlığına yönəldilən siyasətə dəstək xarakteri daşıyır. Sözün əsl mənasında, əsl DOST dəstəyi!

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti əhalinin rifah halının yaxşılaşdırılmasına, həssas qruplara dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləndirilməsinə, bu sahədə mühüm addımların atılmasına, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Bunlarla yanaşı, Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Dövlətimizin başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il avqustun 9-da imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.

## Əsas hədəf: Çevik və yüksəksəviyyəli xidmət!

Həm Bakıda, həm də bütün bölgələrdə, bütövlükdə 31 mərkəz yaradılması əsas hədəf kimi götürülüb. Xüsusilə, onu qeyd etmək lazımdır ki, hər mərkəzdə təqribən 100-150 iş yeri olacaq, bu da çox önəmlidir. Hər bir mərkəzdə könüllülər qrupu fəaliyyət göstərəcək. Beləliklə, bu mərkəzlər vətəndaşlara yüksəksəviyyəli xidmət etmək üçün gözəl şərait yaradacaqdır.

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, sosial sahə ölkəmiz üçün, dövlətimiz üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar öz nəticəsini göstərir. DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır:

"Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. Əlbəttə, buna nail olmaq üçün, ilk növbədə, iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı bir-biri ilə bağlı olan məsələlərdir. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə işlər uğurla gedir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyata çevrilir.

Sosial sahədə bir önəmli təşəbbüs də Özünüməşğulluq Proqramıdır. Mən çox şadam ki, vətəndaşlar bu proqrama çox böyük maraq göstərirlər. Biz artıq bir neçə ildir ki, bu işlərlə məşğuluq. Son dövrdə bu sahədə daha fəal iş aparılır və şadam ki, müraciətlərin sayı artır. Mənim təşəbbüsümlə biz Dünya Bankı ilə bu məsələni müzakirə etdik. Biz onları da bu işlərə cəlb etdik. Dünya Bankı da öz maliyyə resurslarından istifadə edərək bu sahəyə vəsait ayıracaq və beləliklə, bu il təqribən 10 minə yaxın vətəndaş Özünüməşğulluq Proqramı ilə əhatə olunacaq. Gələcəkdə bu işin miqyası artmalıdır. Bu, həm məşğulluğun artırılmasına xidmət edəcək, eyni zamanda, ölkə iqtisadiyyatına böyük töhfə olacaq. Özünüməşğulluq Proqramının qeyri-neft sektorunun, kənd təsərrüfatının, xidmət sektorunun inkişafı üçün çox böyük əhəmiyyəti var.

Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz, məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək."

Xüsusilə, bir faktı da qeyd etmək yerinə düşər ki, DOST Mərkəzlərinin yaradılması, həm də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın sosial sahə ilə bağlı həyata keçirdiyi mühüm fəaliyyətinin növbəti uğurlu davamıdır. Həmçinin, ölkədə aparılan sosial siyasətin icrasına, sosial məsələlərin həllinə, xüsusi qayğıya ehtiyac duyan insanların sosial müdafiə və reabilitasiya xidmətləri ilə təminatına, eyni zamanda, dövlət sosial xidmətləri sisteminin müasir innovasiyaların tətbiqi şəraitində tam şəffaf müstəvidə və sosial cəhətdən həssas əhali qruplarına əlçatan səviyyədə qurulmasına daha bir töhfəsidir.

## DOST Mərkəzlərinin xidmət sferasına nə daxildir?

Bəs bu yeni xidmət sektoruna hansı sahələr daxildir, nə işlər görüləcək və əhatə dairəsi necədir? Gəlin birgə nəzər salaq. Əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər əlaqədar sahələrdə inzibati proseslərin və prosedurların sadələşdirilməsinə, göstərilən xidmətlər üzrə vəzifələrin inzibati bölgüsü yenidən təşkil edilməklə, vətəndaşlara xidmət müddətinin və xərclərinin azaldılmasına nail olunacaq. Xidmətlər modernləşdiriləcək, sənəd dövriyyəsinin təkmilləşdirilməsi, prosedurların sürətləndirilməsi və bununla səmərəliliyinin artırılması təmin ediləcək. Mərkəzlərə vətəndaş axını idarə olunacaq, hər bir müraciət edən qarşılanaraq dinləniləcək və üz tutduğu xidmətlərdən sadə prosedurlarla istifadə imkanı əldə edəcək. İnzibatçılığın səmərəli təşkili təmin olunacaq. DOST mərkəzləri yalnız əyani şəkildə müraciət edənlərlə işləməyəcək, vətəndaşların, bilavasitə telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla xidmətlərin həyata keçirilməsini də təmin edəcək. Necə deyərlər, sosial sektorda yeni İNQİLAB!

Beləliklə, DOST mərkəzləri bir pəncərədən göstərdiyi operativ, keyfiyyətli, şəffaf xidmətlərlə ƏƏSMN-in fəaliyyət sahələri üzrə xidməti kontingentin hər bir üzvünün - əlilliyi olan şəxslərin, aztəminatlı ailələrin, işsiz və işaxtaranların, pensiyaçıların və digərlərinin əsl DOST-u olduğunu qısa zamanda təsdiq edərək, ümumən, ictimai məmnunluğun ünvanı olacaq. Sosial sektorda bundan şəffaf, bundan ASAN hansısa DOST düşünmək olarmı?

***Mətləb Salahov***
***"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçün"***

# Əli Kərimlinin "kliçka"sı ömürlük alnına vurulub

***Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, dağıdıcı müxalifətin tör-töküntülərindən ibarət olan AXCP və Müsavat kimi partiyaların üzdəniraq liderləri diqqət mərkəzinə çevrilmək üçün müxtəlif iyrənc vasitə və üsullardan istifadə edirlər. Həm də, bu vasitələri xarici maraqlı dairələrin tələb və göstərişlərinə uyğun həyata keçirirlər.***



Burada diqqətçəkən məqam ondan ibarətdir ki, iyrənc fəaliyyətləri ilə cəmiyyətin ittiham və qınaq obyekti olan dağıdıcı müxalif ünsürlər, əgər bir neçə il öncə, keçirilən seçkilər öncəsi şoular və məzhəkələr qurmaqla diqqət mərkəzinə çevrilməyə çalışırdısa, indi kurslarını və istiqamətlərini dəyişərək, hər zaman müxtəlif pozucu xarakterli şoular qurmağa çalışırlar. Bu isə onu göstərir ki, müxtəlif hoqqalarla varlığını sübut etməyə çalışan Ə.Kərimli, A.Hacılı, İ.Qəmbər, C.Həsənli və digərləri xarici məkrli qüvvələrdən sərt göstəriş alıblar. Elə bir göstəriş ki, onu təxirə salmaq və ya müzakirə mövzusuna çevirmək qeyri-mümkündür. Əkshalda maliyyə yardımları kəsilə bilər. Digər tərəfdən, mənəvi dəstəkdən, xüsusilə də, müxtəlif qaranlıq dairələrdə lobbiçilikdən məhrum oluna bilərlər. Bu isə, müxalifət üçün siyasi intihara bərabərdir. Nəzərə almaq lazımdır ki, müxalifət xarici ölkələrdə baş verən istənilən dəyişiklikdən yaralanmağa və təcrübə əldə etməklə, fəaliyyət istiqamətlərində istifadə etməyə çalışırlar. Bunu biz Gürcüstan, Ukrayna, Qırğızıstan və bəzi ərəb ölkələrində baş verən rəngli aksiyalar zamanı Azərbaycan müxalifətinin həvəsə küçələrə çıxaraq, hay-küy qaldırmağa cəhd etmələrində görmüşük. Ancaq əqidə dostları Rəsul Quliyev demişkən, bu "badbaxtlar" yanılırlar. Çünki müxalifət təmsilçilərinin dünyada baş verən hadisələrdən, ayrı-ayrı dövlətlərdəki idarəetmə barədə təsəvvürləri yoxdur. Belə olmasaydı, ərəb dövlətlərində baş verənlərin Azərbaycanda da təkrarlanacağını iddia etməzdilər. Bu gün ən savadsız və zəif dünyagörüşünə malik insan belə, Azərbaycanla həmin ölkələr arasında heç bir istiqamət üzrə eyniləşdirmə aparmaq mümkün deyil. Azərbaycan dünyanın əksər ölkələri ilə müqayisədə daha demokratik, insan hüquq və azadlıqlarının müdafiəsində, əhalinin sosial-iqtisadi tələbatlarının ödənilməsində daha geniş imkanlara və şəraitə malikdir. Qısası, möhkəm əsaslara malik ictimai-siyasi sabitlik fonunda, sıx iqtidar-xalq birliyi mövcuddur. Ona görə də, müxalifətin qara-qışqırıq salması, mini-aksiyalar keçirməsi, sosial şəbəkələrdə şər və böhtan kampaniyasından geniş surətdə istifadə etməklə, ümid və arzuları nəticəsiz qalacaq.

## Əli Kərimli anti-zərbaycan şəbəkənin qarşısında diz çöküb

Müxalifət partiya sədrlərinin cəmiyyətdə dəstəyi olmadığı kimi, düşərgə daxilində də, mövqe sahibi deyillər. Hətta elə partiya sədrləri var ki, rəhbərlik etdikləri partiyalarda qəbul olunmurlar. Misal kimi, Müsavat və AXCP- də cərəyan edən hadisələri göstərmək olar. 2016-cı ildə Müsavatda baş verən başqan dəyişikliyindən sonra əksər müsavatçılar Arif Hacılını başqan kimi qəbul etmədikdə, onunla yollarını ayırdılar. Bu gün də, qopma prosesi davam etməkdədir. Daha doğrusu, son iki ay ərzində 200-ə yaxın sıravi müsavatçı A.Hacılının başqan kimi yararsız olduğunu əsas gətirərək, partiya sıralarından istefa veriblər. Eyni acınacaqlı proses AXCP sıralarında da davam etməkdədir. Ə.Kərimlinin səhv, yanlış siyasəti AXCP daxilində ciddi ixtilaflara yol açıb. Bununla yanaşı, Ə.Kərimlinin ermənipərəs qüvvələr qarşısında diz çökərək, maddi maraq xatirinə ölkəmizin imicinə zərbə vurmağa çalışmaları konstruktiv siyasətə meyilli cəbhəçilər arasında ciddi narazılıqlara səbəb olub. ASDP sədri Araz Əlizadənin sözlərinə görə, Əli Kərimlinin satqın və xəyanətkar olması, nəinki AXCP-nin sıradan çıxmasına, eləcə də, ümumilkdə, müxalifət düşərgəsinə ciddi zərbədir: " AXCP tarixində Əli Kərimli qədər pozuculuq fəaliyyəti, Əli Kərimli qədər Elçibəy əleyhinə gedən, bu məsələni təşkilatlanmış, mobil şəkildə təşkil edib, sonunda xəyanət yolu tutan ikinci bir adam olmayıb. Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Əli Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır". Bir sözlə, Ə.Kərimlinin "kliçka"sı alnındadır, bu damğanı silmək və ya təmizləmək mümkünsüdür. A.Əlizadənin qeyd etdiyi kimi, ümumi müxalifətin qara günə qalmasının başlıca günahkarı Ə.Kərimlinin və A.Hacılının yarıtmaz siyasət aparmalarıdır. Yəni sözügedən şəxslər müxalifət üçün də baş ağrısına çevrilib. "AXH", "DDM", "Milli Şura" və bu kimi digər qurumlarda təmsil oluna müxalif partiya sədrləri bir-birinin ünvanına ittihamlar yağdırmaq, bununla da, hər biri özünü daha layiqli lider, aparıcı partiya təmsilçisi kimi sərgiləməyə çalışırlar. Ancaq görünən odur ki, iddialar reallığa çevrilmir. Bütün cəhdlərə baxmayaraq, müxalif düşərgə parçalanmış bir vəziyyətdədir. Müxalifətin birləşə və formalaşa bilməməsi, söz yox ki, müxalifət liderlərinin yarıtmaz siyasət aprmaları ilə bağlıdır. Digər amil isə, Müsavat-AXCP qarşıdurmasıdır. Bu iki partiyanın yarandıqları dönəmdən bu günə qədər bir-birlərinə təpik atmaları, irəli sürdükləri təklif və ideyaları məsxərəyə qoyaraq, rədd etmələri müxalifətin normal fəaliyyət göstəməsinə zərbə olub. Bu zərbə elə sarsıdıcıdır ki, onun sağalması mümükünsüz məsləyə çevrilib.

**İ.ƏLİYEV**

## Qazax rayonunda otlaq sahəsində raket aşkarlanıb

Avqustun 22-də saat 11:06-da Dövlət Sərhəd Xidmətindən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Qazax rayonunun Kəmərli kəndində mərminin tapılması barədə məlumat daxil olub. ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, məlumata əsasən agentliyin xüsusi mobil çevik əməliyyat qrupunun və Dövlət Sərhəd Xidmətinin əməkdaşları dərhal həmin əraziyə göndərilib.

Ərazidə otlaq sahəsinə baxış keçirilib. Təhlükəsizliyi təmin etmək məqsədilə ərazi sərhədçilər tərəfindən əhatəyə alınıb. Agentliyin mütəxəssisləri tərəfindən aparılan təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində 40 millimetrlik PQ-7L raketi aşkarlanıb. Həmin sursat zərərsizləşdirilməsi üçün agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb. Raketin tapıldığın yerin ətrafında 800 kvadratmetr əraziyə baxış keçirilib, əlavə təhlükəli əşya və qurğu aşkarlanmayıb.

## "Ay Əli, mənə niyə xəyanət etdin?"



"Palitra" qəzetinin Baş redaktoru Namiq Əliyev facebook səhifəsində maraqlı, həm də düşündürücü bir status (qeyd) paylaşıb. SİA həmin qeydləri dəyərli oxucuların diqqətinə çatdırmaqla bir daha əmin edir ki, xəyanət həyatda qazanılmır, insanın genində olur. Bu, bir xarakter, həyat tərzidir.

N.Əliyevin qeydləri: "Mən universitetə qəbul olanda Əbülfəz Elçibəyi yenicə həbs etmişdilər. Universitet dəhlizlərində onun haqqında danışanlar ən çox təəssüflənirdilər ki, yaxın çevrəsində olanlar Əbülfəz müəllimə xəyanət ediblər. İllər keçdi, Əbülfəz Elçibəy Azərbaycan Xalq Cəbhəsini qurdu, hakimiyyətə gəldi, ölkənin prezidenti seçildi, lakin bir il sonra devirdilər və getdi kəndlərinə... Maraqlıdır ki, bu dəfə də yaxın ətrafında olanlar, yüksək vəzifə verdiyi şəxslər ona xəyanət etdilər. Bu xəyanətkar dəstənin başında isə Əli Kərimli dururdu. Əli Kərimli iqtidarla əməkdaşlığa getdi, deputat mandatı aldı, Elçibəyin AXC-sini 4-5 yerə parçaladı, öz qəzetlərində onun şəxsiyyətini təhqir etdirdi və s. Beləliklə də ölkədə normal müxalifət partiyasının yaranmasına imkan vermədi. İndi isə elan edir ki, gedəcək Elçibəyin qəbrini ziyarət etməyə... Deyirlər ki, insan qəbirstanlığa gedəndə, qısa müddətə də olsa, vaxtilə etdiyi pis əməllərindən peşman olub, tövbə etmək istəyir. Maraqlıdır, heç olmasa Elçibəyin məzarı önündə Əli Kərimli tövbə edə biləcəkmi?

Yadıma Rəsul Həmzətovun Şeyx Şamillə bağlı bir etirafı düşdü. Həmzətov gənc yaşlarında Şeyx Şamilin əleyhinə şeir yazır. Elə həmin gecə Şeyx Şamil onun yuxusuna girir və deyir: "Mənə düşmən çox yara vurmuşdu, birini də sən vurdun". Düşünürəm ki, görəsən Elçibəy Əli Kərimlinin yuxusuna girib, deyibmi ki, "Ay Əli, mənə niyə xəyanət etdin?".

## Ölkə ərazisində isti hava şəraiti davam edəcək



Azərbaycanda avqustun 23-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq. Şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24°, gündüz 35-38°, Bakıda gecə 22-24°, gündüz 36-38° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 25-35 faiz təşkil edəcək. Abşeron çimərliklərində şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 26-27°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacağı ehtimalı var.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 23-də Bakıda və Abşeron yarımadasında zəif küləyin üstünlüyü, arabir yaranan durğun hava şəraiti fonunda gündüz isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 34-38° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 23-28° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 33-38° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti, dağlarda gecə 12-17°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 32-37° isti, dağlarda gecə 14-19°, gündüz 27-32° isti olacağı gözlənilir.

## Bərdədə top mərmisi aşkarlanıb



Avqustun 22-də saat 11:30-da Daxili İşlər Nazirliyinin 102 Zəng Mərkəzi Xidmətindən və saat 11:56-da Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Bərdə şəhərinin Heydər Əliyev prospekti 111 ünvanında mərminin tapılması barədə məlumatlar daxil olub.

ANAMA-dan bildiriblər ki, məlumatlara əsasən agentliyin xüsusi mobil çevik əməliyyat qrupunun və Bərdə Rayon Polis Şöbəsinin əməkdaşları dərhal həmin əraziyə göndərilib. Ərazidə söküntü işləri aparılan sahəyə baxış keçirilib. Təhlükəsizliyi təmin etmək məqsədilə ərazi polis tərəfindən əhatəyə alınıb. Agentliyin mütəxəssisləri tərəfindən aparılan təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində 37 millimetrlik top mərmisi (OR-167N) aşkarlanıb. Həmin sursat zərərsizləşdirilməsi üçün agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb. Mərminin tapıldığı yerin ətrafında 200 kvadratmetr əraziyə baxış keçirilib, əlavə təhlükəli əşya və qurğu aşkarlanmayıb.

# Azərbaycanda müvəkkilliyin əhali qruplarının hüquqlarının müdafiəsi

***Qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi. Azərbaycan Respublıkasına qarşı işğalçılıq və terrorçuluq siyasətinin davam etdirilməsi nəticəsində bir milyondan çox insanın beynəlxalq hüquqla tanınmış bir çox hüquq və azadlıqları pozulmaqda davam edir. Beynəlxalq qurumların, dünya ictimaiyyətinin gözü önündə hadisələrə qərəzli mövqedən yanaşma nəticəsində, Ermənistan Respublikası hələ də ölkəmizin ərazi bütövlüyünü tanıyan, BMT tərəfindən qəbul olunmuş 4 məlum qətnamənin tələblərini indiyədək yerinə yetirmir və dünya birliyinin bərabərhüquqlu üzvü olan suveren Azərbaycan Respublikasına qarşı işğalçılıq və terrorçuluq siyasətini davam etdirir.***

Son dövrlərə qədər 49 min ailə və ya 243 min nəfər məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmış, bu məqsədlə 5 yeni yaşayış kompleksi salınmış, 5 məktəb inşa edilmiş, həmçinin, 3 uşaq bağçası, 3 tibb məntəqəsi tikilib istifadəyə verilmişdir. Bununla belə, 120 mindən çox məcburi köçkün hələ də yaşayış üçün yararlı olmayan ictimai binalarda, yataqxanalarda, sağlamlıq düşərgələrində və digər müvəqqəti məskunlaşma yerlərində ağır şəraitdə yaşayır və bir çox sosial problemlərlə üzləşirlər.

Müvəkkil daim məcburi köçkünlərin qayğıları ilə maraqlanmış, onların problemləri ilə yerində tanış olmuşdur. Qaçqın və məcburi köçkünlərdən mülkiyyət, əmək, sosial təminat, sağlamlıq, təhsil hüququ və digər məsələlərlə bağlı 829 müraciət daxil olmuş, araşdırılması məqsədilə aidiyyəti dövlət qurumlarına, o cümlədən, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, Dövlət Miqrasiya Xidmətinə nüraciətlər edilmiş, mənzil-məişət, əmək və işsizlik problemlərinin həlli üzrə tədbirlər görülmüşdür.

Məcburi köçkünlər tərəfindən, xüsusilə, Bakı şəhərində zəbt edilmiş ev, mənzil və digər tikililərin sahiblərinin pozulmuş hüquqlarının bərpası məqsədilə həmin məcburi köçkün ailələrinin onlar üçün yeni tikilən binalara köçürülməsi məqsədəuyğundur.

Müvəkkil Daxili İşlər Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Dövlət Sərhəd Xidməti və digər dövlət qurumları ilə yanaşı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) və Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəlikləri ilə əməkdaşlığa xüsusi önəm vermişdir. Bu sahədə çalışan dövlət qulluqçuları üçün geniş maarifləndirmə işi aparılmış, Biləsuvar, Cəlilabad, Astara, Lənkəran, Quba, Qusar və Xaçmaz rayonlarında çalışan sərhədçilər, həmçinin, hakimlər və yerli hüquq-mühafizə orqanlarının nümayəndələri üçün silsilə regional təlimlər keçirilmişdir.

Dövlət Miqrasiya Xidmətinin, Müvəkkilin və BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə Bakı şəhərində "Vətəndaşsızlığın aradan qaldırılması və qarşısının alınması" mövzusunda konfrans keçirilmişdir.

Konfransın məqsədi vətəndaşlığı olmayan şəxslərin hüquqlarına layiqli hörməti təmin etməklə, vətəndaşsızlıq hallarının aşkar edilməsi, qarşısının alınması və bu şəxslərin hüquqi statusunun müəyyənləşdirilməsi zamanı yaranan problemlərin, o cümlədən, onların hüquqlarının səmərəli müdafiəsi naminə əməkdaşlığın müzakirəsindən ibarət olmuşdur.

Respublikamızın Xocalı şəhərində törədilmiş soyqırımı, habelə, Dağlıq Qarabağda və onun ətraf rayonlarında Ermənistan silahlı qüvvələrinin azərbaycanlılara qarşı törətdikləri zorakılıqlarla bağlı Müvəkkil bəyanatlar vermiş, onları BMT-nın Baş katibinə, İnsan Hüquqları üzrə Ali Komissarına, Qaçqınlar üzrə Ali Komissarına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına və bu qurumlara üzv olan Ombudsmanlara, xarici ölkələrin Azərbaycan Respublikasındakı səfirliklərinə və respublikamızın xaricdəki səfirliklərinə, həmçinin, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporalarına ünvanlamışdır.

Müvəkkilin və əməkdaşlarının xarici ölkələrə işgüzar səfərləri zamanı bütün beynəlxalq tədbirlərdə xalqımızın üzləşdiyi bu faciələri özündə əks etdirən çoxsaylı ədəbiyyat, bəyanatlar və disklər paylanmışdır.

2015-ci ildə miqrantların hüquqlarının müdafiəsi məsələləri Müvəkkilin diqqətində olmuş, miqrantların hüquqlarının müdafiəsi məqsədilə bir sıra təklif və tövsiyələr irəli sürülmüş və aidiyyəti qurumlara göndərilmişdir. "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər layihəsinə və "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planının icrası ilə əlaqədar Miqrasiya Məcəlləsinə əlavələr edilməsi məqsədilə müvafiq təkliflər hazırlanaraq, aidiyyəti üzrə təqdim edilmiş və onların əksəriyyəti nəzərə alınmışdır.

2015-ci ildə də həm penitensiar sistemin, həm də daxili işlər orqanlarının müvəqqəti saxlama və həbs yerlərinin təkmilləşdirilməsi, məhkumların və saxlanılan şəxslərin hüquqlarının qorunması və saxlanılma şəraitinin beynəlxalq standartlara uyğun qurulması üzrə ardıcıl tədbirlər görülrnüş, penitensiar infrastrukturun müasirləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Qeyd edilənlərlə yanaşı, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 2015-ci ildəki fəaliyyətinin yekunlarına əsasən, vəzifədən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma və korrupsiya elementlərinin yaranmasına zəmin-olan səbəb və şəraitin aradan qaldırılmasına yönələn konkret tədbirlər nəticəsində, pozuntulara yol verən 322 əməkdaş intizam məsuliyyətinə cəlb edilmiş, 18 əməkdaş tutduğu vəzifədən azad olunmuş, 18 əməkdaş isə ədliyyə orqanlarından xaric edilmişdir.

Müvəkkilin fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə və hauptvaxtlara müntəzəm, o cümlədən, təsdiq olunmuş plan üzrə, həmçinin, Müvəkkilə ünvanlanmış, habelə qaynar xəttə daxil olmuş müraciətlər əsasında plandankənar başçəkmələr həyata keçirilmiş, bu şəxslərə, habelə, həmin müəssisələrin əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Başçəkmələrin yekunu olaraq, həbs yerlərinin daxil olduğu müvafiq qurumlara təklif və tövsiyələr verilmiş, təkliflərin həyata keçirilməsi isə, növbəti başçəkmələr zamanı monitorinq olunmuş, ehtiyac duyulan əlavə tövsiyələr verilmişdir.

Məhkumların saxlanılma şəraitinin və onlara qarşı rəftar məsələlərinin araşdırılması məqsədilə Müvəkkil və aparatın əməkdaşları, mütəmadi olaraq, penitensiar xidmətin müəssisələrində olmuş, müəssisələrin yataqxanalarına, tibb-sanitar hissələrinə, yeməkxanalara, kitabxana və klublara baxışlar keçirmiş, müəssisələrdə saxlanılan şəxslərlə və məhkumlarla görüşmüş, onların qaldırdıqları məsələlər yerində araşdırılmışdır.

Baxışlar zamanı məhkumların saxlanma şəraitinə və pis rətlara məruz qalınamasına xüsusi diqqət yetirilmişdir. Bununla yanaşı, seçki hüququnun, vicdan, əqidə və dini azadlıqlarının təmin edilməsi, sağlamlıqlarının qorunması vəziyyəti yoxlanılmışdır.

Məhkumlar Müvəkkilin ünvanına sosial təminat, ailə məsələləri, sağlamlıq hüququnun təmini, ekstradisiya, cəzaçəkmə müəssisələrində rollar, saxlama şəraiti və digər məsələlərlə bağlı müraciətlər də etmiş, həmin müraciətlər araşdırılmış və müvəkkilin müdaxiləsi nəticəsində, qanunvericiliklə müəyyən edilmiş qaydada öz həllini tapmışdır.

Məhkumların və onların ailə üzvlərinin müraciətlərini nəzərə alaraq, müxtəlif vaxtlarda Müvəkkil Azərbaycan Respublikası Prezidentinin yanında əfv məsələləri komissiyasına müraciətlər etmiş, əfvlə bağlı çoxsaylı vəsatətlər qaldırmışdır.

Əsası Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən humanizm və ədalət prinsiplərinə əsaslanan dövlət siyasətinin, habelə, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət və ehtiramın nəticəsidir ki, ölkəmizdə, qısa müddətdə, ümumilikdə, 10 amnistiya aktı qəbul olunmuş, 60 əfv fərmanı və sərəncamları imzalanmış, minlərlə insan cəzadan azad edilərək, cəmiyyətə və ailələrinə qovuşmuşdur. Bu baxımdan, Azərbaycan Rcspublikası Prezidentinin "Məhkum edilmiş bır sıra şəxslərin əfv olunması haqqında" 2015-ci il 18 mart və 28 dekabr tarixli sərəncamları da təqdirəlayiqdir.

Fəaliyyəti dövründə Müvəkkilin vəsadəti ilə, ümumilikdə, 493, 2015-ci ildə isə, 38 məhkum əfv edilmişdir.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının daha da təkmilləşdirilməsi və səmərəli təmin edilməsi məqsədilə Müvəkkil yuvenal ədliyyə sisteminin yaradılmasını və müvafiq qanunun qəbul edilməsinin sürətləndirilməsini, həbs yerlərində saxlanılan şəxslərin və məhkumların saxlanılması üçün nəzərdə tutmuş maliyyə vəsaitinin artırılmasını (o cümlədən, qidalanma, tibbi yardım və dərman preparatları ilə təminatı), məhkumların fiziki iş qüvvəsinin sağlam əməyə istiqamətləndirilməsi yolu ilə islah edilməsinin əhəmiyyəti nəzərə alınaraq, onların ictimai faydalı əməyə cəlb edilməsi üçün yeni istehsalat sahələrinin yaradılmasını, cəzasını çəkmiş və cəzaçəkmə müəssisəsindən buraxılmış, lakin daimi yaşayış yeri olmayan məhkumlar üçün sığınacağın və Resurs Mərkəzinin yaradılması məşğulluq probleminin həlli üzrə mexanizmin hazırlanmasını, Müalicə Müəssisəsinin, 2 saylı istintaq təcridxanasının və həbsxanasının yeni binalarının tikintisinin sürətləndirilməsini, cəzaları icra edən orqanların işçiləri üçün, mütəmadi olaraq, treninq proqramlarının və təlimlərin təşkil edilməsini, məhkumlar üçün hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsini təklif etmişdir.

Təşəbbüslər sırasında çətin tərbiyə olunan və qanunla münaqişədə olan yeniyetmələrin sosial adaptasiyası, hüquq pozuntusu törətmiş şəxslərə tətbiq olunan tədbirlərin sosial inkluziyası sosial və psixoloji xidmətlərin gücləndirilməsi, eləcə də, cəmiyyətdə hüquq pozuntularının qarşısının alınması istiqamətində protilaktik tədbirlər və çətinliklərin aradan qaldırılması qarşıda duran məsələlərdəndir.

Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli Qanunu ilə Cinayət Məcəlləsinə edilən dəyişikliklərə əsasən, cinayət törətmiş yetkinlik yaşına çatmayanlar üçün məhkumluğun ödənilməsi müddətləri qısaldılmışdır ki, bu da, ölkə Prezidentinin humanist siyasətinin, habelə, uşaqlara olan diqqət və qayğısının bariz nümunəsidir. Həmin məcəllənin 92-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, şərti məhkum etməyə görə, məhkumluq istisna olmaqla, məhkumluğun bu məcəllənin 83.3-cü maddəsində nəzərdə tutulmuş müddətləri cinayət törətmiş yetkinlik yaşına çatmayanlar üçün qısaldılır və azadlıqdan məhrumetməyə nisbətən daha yüngül cəzanın çəkilib qurtardığı gündən altı ay, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə azadlıqdan məhrumetmə növündə cəzanın çəkilib qurtardığı gündən bir il, ağır və ya xüsusilə, ağır cinayət törətməyə görə azadlıqdan məhrumetmə növündə cəzanın çəkilib qurtardığı gündən üç il keçdikdə, məhkumluq ödənilmiş hesab edilir.

Təqsirləndirilən şəxsə münasibətdə həbs qətimkan tədbirinin seçilməsinə üstünlük verilməsi və bu qətimkan tədbirinin müddətinin bir neçə dəfə uzadılması istintaq təcridxanalarında sıxlığın yaranmasına, saxlama şəraiti ilə bağlı çətinliklərə, yetkinlik yaşına çatmayanlar arasında isə kriminal davranışa meyilliyin artmasına gətirib çıxarır. Bu isə, alternativ cəza tədbirlərinin geniş tətbiqi zərurətini önə çəkir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə dotoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 23 avqust

## Şostakoviçin sevgi məktubları Moskvada hərraca çıxarılıb



Məşhur sovet bəstəkarı Dmitri Şostakoviçin Böyük Teatrın balerinası Nina İvanovaya yazdığı sevgi məktubları Moskvada hərraca çıxarılıb. RİA "Novosti" xəbər verir ki, hərracda on məktub satılacaq. Məktubların ilkin qiyməti 750-800 min rubldur. Şostakoviç balerina ilə 1933-cü ildə tanış olub. Uzun müddət onun pərəstişkarı olub, lakin evli olduğuna görə N.İvanova ona rədd cavabı verib. Şostakoviçin çoxsaylı cəhdlər göstərməsinə baxmayaraq, onların münasibətləri balerina başqasına ərə getdiyi üçün 1940-cı ildə bitib.

## Dünyada ən çox qazanan aktyorların siyahısı açıqlanıb



ABŞ aktyoru Dueyn Conson "Forbes" jurnalında ən çox qazanan aktyorların reytinq siyahısında birinci yeri tutub. TASS informasiya agentliyi xəbər verir ki, 47 yaşlı Dueyn Conson 12 ay ərzində 89,4 milyon ABŞ dolları qazanaraq jurnalın reytinq siyahısında keçən il tutduğu ikinci yerdən birinciyə irəliləyib. Sıyahıda ikinci yeri Kris Hemsvort (76,4 milyon ABŞ dolları), üçüncü yeri oğul Robert Dauni (66 milyon ABŞ dolları) tutub. İlk onluqda, həmçinin Akşay Kumar, Ceki Çan, Bredli Kuper, Adam Sendler, Kris Evans, Pol Radd, Uill Smit yer alıblar.

## Brokkoli qəbul etmək ürək-damar sistemi xəstəliklərindən qoruyur



Brokkoli kələmçiçəyikimilər fəsiləsinə aid olan birillik bitkidir. Qida dəyəri baxımından çox əhəmiyyətli olan bu tərəvəzi ilboyu əldə etmək mümkündür. AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, bəzən uşaqlar və böyüklər brokkolinin dadını bəyənməsələr də, onun çoxlu xeyirli cəhətləri var.

Bitkinin gövdəsi 50-90 santimetr uzunluğa malikdir. Əsasən bitkinin çiçək və zoğ hissəsindən istifadə edilməsi tövsiyə olunur, çünki daha çox sellüloza və lif həmin hissədə yerləşir. Onun buxarda bişirilməsi və yağda qovrulması tərkibindəki vitaminlərin daha çox qalmasına səbəb olur.

Brokkolinin rənginin saralması onun keyfiyyətinin itməsi deməkdir. Ürək-damar sistemini qoruyan brokkoli müxtəlif xəstəliklər zamanı da çox əhəmiyyətlidir. Dərinin sağlam və hamar qalmasına müsbət təsir göstərir.

## Süd dişlərində çürük yaranmasının əsas səbəbləri

Uşaqlarda diş problemləri erkən yaşlarda başlayır. Dişlərin gec çıxması, çürüməsi və qırılması narahatlıq yaradan əsas səbəblərdəndir. Uşaqların dişlərində yaranan başlıca problemlərdən biri də çürümədir. Mütəxəssislər onu müxtəlif səbəblərlə izah etsələr də, adətən əsas səbəb kimi hazır qidaların uzun müddət dişlərdə qalması göstərilir. Bundan başqa kifayət qədər fırçalalamamaq, düzgün qidalanmamaq da dişlərin çürüməsinə təsir edir.

Dişlərin vaxtından əvvəl çürüməsinin başlıca səbəblərindən birinin infeksiyalar olduğunu söyləyən paytaxtın Xətai rayonundakı 8 nömrəli uşaq poliklinikasının həkim-stomatoloqu Kamil İsayev AZƏRTAC-a deyib: "Uşaqlarda süd dişləri adətən 6-8 aylığından etibarən çıxmağa başlayır və 2 yaşınadək davam edir. 7 yaşdan sonra isə daimi dişlər çıxır. 2 yaşınadək dişləri yumaq məsləhət deyil və yalnız ağız qarqaraları ilə kifayət edir. 2 yaşından 5 yaşına qədər dişlər mütləq yuyulmalıdır. Süd dişləri həssas olduğuna görə şirin qidalardan çox istifadə onun çürüməsinə və dişlərə karies düşməsinə səbəb olur".

Həkim-stomatoloqun dediyinə görə, müalicə edilməyən süd dişi çürükləri ağrıyır, ağızda pis qoxuya, dişləmə çətinliklərinə, qulluq pozğunluğuna və xoşagəlməz görünüşə aparıb çıxarır. Həmin dövrdə müalicə edilməyən dişlər sonradan əyriliyə səbəb olur ki, bu da çənə inkişafında ümumi sağlamlıq problemləri ilə nəticələnə bilər. Belə hallarla üzləşməmək üçün vaxtında həkimə müraciət etmək məsləhətdir.

## AFFA-da "Elit məşq" layihəsinin təqdimatı olub



Avqustun 22-də AFFA-nın inzibati binasında aşağı yaş qruplarından ibarət Azərbaycan yığma komandalarının əlaqələndiricisi Miloş Velebit tərəfindən "Elit məşq" layihəsinin təqdimatı olub. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə AFFA-nın baş katibi Elxan Məmmədov çıxış edərək iştirakçıları salamlayıb. "Elit məşq" layihəsinin bir neçə ildir ki, tətbiq olunduğunu bildirən baş katib bu istiqamətdə yeni mərhələnin başladığını qeyd edib.

Qeyd olunub ki, hazırkı mərhələdə layihə 26 məşqçinin iştirakı ilə keçiriləcək, lakin qarşıdakı müddət ərzində məşqçilərin və layihənin tətbiq olunduğu bölgələrin sayı artırılacaq. Sonra Miloş Velebit "Elit məşq" layihəsi ilə bağlı təqdimatla çıxış edib. Tədbir layihə çərçivəsində fəaliyyət göstərəcək məşqçilərlə yanaşı, AFFA rəsmiləri, Məşqçilər Komitəsinin üzvləri və milli komandaların məşqçilərinin iştirakı ilə keçirilib.

## Dünya rekordçusu iki il müddətinə yarışlardan kənarlaşdırıla bilər




Dünya rekordçusu, amerikalı atlet Kristian Koulman (60 m) son bir ildə üç dopinq testini buraxıb. TASS agentliyi xəbər verir ki, bu barədə "Daily Mail" qəzeti məlumat yayıb. Antidopinq qaydalarını pozduğu üçün 23 yaşlı idmançı builki dünya çempionatı və 2020-ci il Olimpiya Oyunlarında iştirakdan məhrum edilə bilər. ABŞ Antidopinq Agentliyinin (USADA) qaydalarına görə, atlet iki il müddətinə yarışlardan kənarlaşdırıla bilər. Qeyd edək ki, Kristian Koulman keçən ilin fevralında 6,34 saniyə nəticə ilə dünya rekordu müəyyən edib. Builki dünya çempionatı sentyabrın 28-dən oktyabrın 6-dək Dohada (Qətər) keçiriləcək.

## "Barselona" Dembeleni böyük məbləğdə cərimələyəcək




"Barselona" hücumçusu Usman Dembeleni cəriməlməyə hazırlaşır. İspaniya mətbuatının yazdığına görə, buna səbəb fransalı futbolçunun intizamsız davranışıdır. O, La Liqanın ilk turunda "Atletik"lə görüşdən sonra Bilbao hava limanında divanda yatıb. Bundan başqa, Dembele zədəsini klubun tibbi personalından gizlədib. Məhz bu səbəbdən o, daha uzun müddətə meydana çıxa bilməyəcək. Bunları nəzərə alan klub rəhbərliyinin oyunçunu 980 min avro məbləğində cəriməyəcəyi gözlənilir. Xatırlada ki, Dembele zədəsinə görə 4-5 həftə komandasına kömək edə bilməyəcək.

## Joze Mourinyo PSJ-nin sükanı arxasına keçir?

PSJ-nin rəhbərliyi komandanın baş məşqçisi Tomas Tuheli istefaya göndərməyə hazırlaşır. "Goal.com" xəbər verir ki, yeni mövsümə uğursuz start verən komandanın futbolçuları Tuhelin iş metodundan narazılıq edir. Klub rəhbərliyinin almaniyalı mütəxəssisi Joze Mourinyo ilə əvəzləyəcəyi bildirilir. Qeyd edək ki, Tuhel 2018-ci ilin yayından PSJ-ni çalışdırır. Mourinyonun son iş yeri isə ötən ilin dekabrında tərk etdiyi "Mançester Yunayted" olub.

## "Qalatasaray"ın hücumçusu "PSV Eyndhoven"də




İstanbulun "Qalatasaray" klubunun futbolçusu Kostas Mitroğlu karyerasını Hollandiya çempionatında davam etdirəcək. Türkiyə klubunun saytında yer alan məlumata görə, Yunanıstan millisinin hücumçusu icarə əsasında "PSV Eyndhoven" komandasında çıxış edəcək. Hollandiya təmsilçisi K.Mitroğluya görə 1 milyon 250 min avro təzminat ödəyəcək. Lakin futbolçunun məvacibini "Qalatasaray" təmin edəcək. İstanbul klubu oyunçuya bir il üçün 1 milyon 950 min avro verəcək.

Qeyd edək ki, müqavilə ilə Fransanın "Marsel" klubuna məxsus olan 31 yaşlı hücumçu bu ilin əvvəlində "Qalatasaray"a icarəyə verilib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**